# Vəziyyətləri stabildir

TƏBİB Ağdam xəstəxanasının 12 əməkdaşının zəhərlənməsi ilə bağlı məlumat yayıb



**Dünən Ağdam Rayon Mərkəzi Xəstəxanasının 12 əməkdaşı zəhərlənmə diaqnozu ilə xəstəxananın Qəbul şöbəsinə yerləşdirilib.**

Bu barədə TƏBİB-dən bildirilib.

Qeyd edilib ki, onların hər birinin vəziyyəti stabil olaraq qiymətləndirilir. Hazırda müalicələri davam etdirilir, onların vəziyyəti TƏBİB rəhbərliyinin nəzarətindədir.

Zəhərlənmənin səbəbi araşdırılır.



## Jurnalistlər üçün inşa edilmiş binanın həyətində abadlıq işləri görülüb

Bakının Səbail rayonu, Yeni Salyan yolu 22 ünvanında yerləşən jurnalistlər üçün inşa edilmiş binanın həyətində abadlıq işləri həyata keçirilib.

(səh.3)

№ 140 (5662), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 avqust 2022-ci il (çərşənbə)



## Payızda karantin rejimi tətbiq oluna bilər

İnsanlar sıx toplaşma məkanlarından mümkün qədər çəkinməlidir

**Son həftələr koronavirusa yoluxma sayında sürətli artım müşahidə olunur.**

Ölkədə yeni yoluxma sayı 500 nəfərə çatıb. Bu artım fonunda mətbuata açıqlama verən TƏBİB-in nümayəndəsi, Elmi-Tədqiqat Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini Akif Qurbanov deyib ki, Azərbaycanda COVID-19 pandemiyası ilə əlaqədar müəyyən karantin tədbirləri tətbiq oluna bilər.

(səh.3)



## Qardaşlar bu dəfə Konyada görüşdülər

İslamiadanın açılış mərasimində iştirak edən rəsmilərin şərəfinə şam yeməyi verilib

**Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə şam yeməyi verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və digər rəsmi şəxsləri qarşıladı. Prezident Rəcəb Tayyib Ərdoğan dövlət, hökumət və nümayəndə heyətləri başçıları ilə söhbət etdi.

(səh.2)

## Ermənistan öhdəliklərini tam yerinə yetirməlidir

Ceyhun Bayramov: “Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin ediləcəkdir”



**”Ermənistanın müxtəlif bəhanələrlə normallaşma prosesinə zərər vurması heç kəsə fayda verməyəcək”.**

Bunu Ankarada Türkiyə KİV-ə müsahibəsində Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib ki, Ermənistanın nəhayət bunu anlayacağına ümid edirik...

(səh.2)

# Ermənilər avqustun sonuna qədər Laçını tərk edəcəklər

Bakının bütün addımları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində atılır



**Laçın şəhəri və Zabux kəndində işğaldan sonra məskunlaşmış ermənilər torpaqlarımızı boşaltmağa başlayıblar. Ermənistan mediasının məlumatına görə, separatçı Hayk Xanumyan onlara evlərini tərk etmək üçün avqustun 25-dək vaxt verildiyini deyib. Ermənilər bildiriblər ki, Laçın dəhlizi avqustun sonunda Azərbaycana təhvil veriləcəyi üçün bu ərazilər boşaldılır.**

Qeyd olunub ki, Laçın dəhlizinə alternativ yeni yolda işlər yekunlaşmaq üzrədir. Tikinti işləri bitəndən sonra Rusiya sülhməramlı qüvvələrinin həmin yola keçirilməsi nəzərdə tutulur. Ermənistan bir neçə istiqamətdə hərbi-siyasi gündəm yaratmaqla üçtərəfli razılaşmanın müddəalarının yerinə yetirilməsini gecikdirməyə çalışsa da, rəsmi Bakı İrəvanı buna məcbur edir.

(səh.3)

## Dəhşətli müharibə Zelenskinin psixologiyasını tamam pozub

Qərb ölkələrinin rus xalqı ilə arasına ”divar hörməsi” əks effekt verər



**Ukrayna Prezidenti V.Zelenski Kiyevə silah və maliyyə yardımı göstərən Qərb ölkələri qarşısında yeni tələblər irəli sürüb.**

Zelenski bildirib ki, Qərb ölkələri rusların öz ərazilərinə girişini qadağan etməlidir.

Onun sözlərinə görə, ən mühüm sanksiyalar sərhədlərin bağlanmasıdır, çünki ruslar başqasına məxsus torpaqları alırlar:

”Ona görə də onlar fəlsəfələrini dəyişənə qədər öz dünyalarında yaşamalıdırlar”.

(səh.4)



## Ukrayna Belarusla təhlükəsizlik sahəsində əməkdaşlığı dayandırıb

**Ukrayna Nazirlər Kabineti Belarusla təhlükəsizlik sahəsində əməkdaşlığı dayandırıb.**

”Report” ”RBK Ukraina”ya istinadən xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin Ali Radadakı nümayəndəsi Taras Melniçuk məlumat verib. Onun sözlərinə görə, bu gün Ukrayna Daxili İşlər Nazirliyi ilə Belarus Daxili İşlər Nazirliyi arasında bağlanmış müqaviləyə xitam verilib.

Qeyd edək ki, bu müqavilə 1992-ci ildə imzalanıb. Sənəd Ukrayna və Belarusun təhlükəsizlik qüvvələrinə qarşılıqlı əlaqə saxlamağa və birgə araşdırmalar aparmağa imkan verdi.

*Xatırladaq ki, bundan əvvəl hökumət Belarusla daxili su yollarında naviqasiya haqqında müqaviləyə xitam vermişdi.*

## Koronadan bir nəfər vəfat edib

Son sutkada daha 563 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 563 yeni yoluxma faktı qeydə alınıb, 520 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 802 623 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 789 667 nəfər müalicə olunaraq sağalıb, 9 762 nəfər vəfat edib, aktiv xəstə sayı 3 194 nəfərdir.

## Babadağda həlak olan şəxsin meyiti tapılıb



**Avqustun 6-da İsmayıllı rayonu ərazisində Babadağ dağında həlak olduğu bildirilən Məmmədov Mübariz Əliağa oğlunun meyiti tapılaraq aidiyyəti üzrə təhvil verilib.**

Bu barədə Fövqəladə Hallar Nazirliyindən bildirilib.

Qeyd edək ki, avqustun 6-da İsmayıllı rayonu ərazisində Babadağ dağında köməksiz vəziyyətdə qaldığı bildirilən şəxslərdən 3 nəfəri - Xudaverdiyev Niyyət Vüqar oğlu, Xudaverdiyev Ağa Aqil oğlu və qardaşı Xudaverdiyev Emil Aqil oğlu sağ tapılaraq aidiyyəti üzrə təhvil veriliblər.



## "Mən də İrəvan qaçqınıyam, torpağıma qayıtmaq istəyirəm"

Dilqəm Əhməd: "Müharibə tamamilə bitdikdən sonra qaçqınların rahat şəkildə dədə-baba torpaqlarında yaşamaları təmin edilməlidir"

(səh.6)

## "Anar müəllim AYB sədrliyindən getsə çox ciddi problemlər yarana bilər"

Əsəd Cahangir: “Yoxluğu mütləq hiss olunacaq”



(səh.4)



# Qardaşlar bu dəfə Konyada görüşdülər

**Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə şam yeməyi verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və digər rəsmi şəxsləri qarşıladı.

Prezident Rəcəb Tayyib Ərdoğan dövlət, hökumət və nümayəndə heyətləri başçıları ilə söhbət etdi.

Sonra şam yeməyi oldu.

Tədbirdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamlayaraq dedi: "V İslam Həmrəyliyi Oyunları ilə əlaqədar bu qardaşlıq süfrəsi ətrafında sizinlə birlikdə olmaqdan böyük məmnunluq duyuram. Həzrət Mövlanənin şəhəri Konyamıza hamınız xoş gəlmisiniz. Sizin şəxsinizdə İslam dünyasının müxtəlif bölgələrindən Oyunlarda iştirak edən bütün idmançılarımıza və komandalarımıza da "Xoş gəldiniz!" deyirəm.

İslam Həmrəyliyi Oyunlarının sonuncusunu əziz Qardaşım İlham Əliyevin və hörmətli birinci xanım Mehriban Əliyevanın ev sahibliyi ilə 2017-ci ildə Azərbaycanda keçirmişdik. Azərbaycanlı qardaşlarım hər baxımdan uğurlu ev sahibliyinə imza atmışdır".

Prezident Rəcəb Tayyib Ərdoğan pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılmasından sonra V İslamiadanın keçirilməsindən məmnunluğunu ifadə etdi, Oyunlara marağın böyük olduğunu vurğuladı. Dünyada gərginliklərin, iqtisadi çətinliklərin yaşandığını, müsəlmanlara qarşı bütün sahələrdə ayrı-seçkiliyin ciddi narahatlıq doğurduğunu vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan Konyadan bütün dünyaya ötürüləcək qardaşlıq mesajlarının bu ayrı-seçkiliyin qarşısının alınmasına töhfə verəcəyinə əminliyini bildirdi.

Türkiyə Prezidenti bütün komandalara və idmançılara uğurlar arzuladı.

## İslamiadanın açılış mərasimində iştirak edən rəsmilərin şərəfinə şam yeməyi verilib




Daha sonra V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Açılış mərasiminin keçirildiyi Konya Böyükşəhər Bələdiyyəsi Stadionunun üzərində "Türk Yıldızları" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları möhtəşəm mərasimin iştirakçılarına xoş anlar yaşadıb.

Sonra Livan əsilli isveçli müğənni Maher Zain konsert proqramı ilə çıxış edib. Konsert zamanı dron və işıq effektləri mərasimə xüsusi rəng qatıb.

Daha sonra müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

Bu möhtəşəm tədbirin tamaşaçıları arenaya daxil olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı, Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını hərarətlə alqışladılar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə qısa söhbət etdi.

Mərasimdə əvvəlcə səhnəyə çıxan rəqqaslar V İslam Həmrəyliyi Oyunlarının loqosunu canlandırdılar. Oyunlar üçün xüsusi olaraq lalə formasında hazırlanmış loqo özündə 21 rəqəmini simvolizə edir. Loqoda, həmçinin ərəb dilində "qardaş" sözünü bildirən " ? ?" sözü də yer alıb.

Açılış mərasimində Türkiyə tarixinin müxtəlif dövrlərini və mədəni zənginliklərini əks etdirən kompozisiya nümayiş olundu. Kompozisiyanın sonunda işıq effektləri vasitəsilə səhnədə Türkiyə bayrağı və ay-ulduz fiquru təcəssüm etdirildi. Ardınca hərbçilər Türkiyənin Dövlət Bayrağını səhnəyə gətirdilər. Bayraq Türkiyənin Dövlət Himni - "İstiqlal Marşı"nın sədaları altında qaldırıldı.

Bayrağın qaldırılmasından sonra "Konya-2021" V İslam Həmrəyliyi Oyunlarının könüllülərinin və komandaların paradı oldu.

Azərbaycan idmançıları meydana dördüncü sırada daxil oldular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva komandamızın üzvlərini hərarətlə alqışladılar.

Açılış mərasimində Azərbaycanın üçrəngli bayrağını atlet Nazim Babayev və voleybolçu Ayşən Abduləzimova apardılar.

Nazim Babayev Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qalibi, Qış Universiadasının ikiqat qalibi, Yeniyetmələrin Yay Olimpiya Oyunlarının bürünc medalçısıdır. Ayşən Abduləzimova isə qadın voleybolçulardan ibarət Azərbaycan millisinin kapitanı, "Çağırış" kubokunun, "Qızıl Avropa" liqasının və IV İslam Həmrəyliyi Oyunlarının qalibidir.

Azərbaycanı İslamiadada 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır.

# Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır

## Prezident İlham Əliyev Konyada Azərbaycanı təmsil edən idmançılarla görüşüb





**"Döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək". Bunu Prezident İlham Əliyev avqustun 9-da Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanı təmsil edən idmançılarla görüşdə deyib.**

Dövlət başçısı bildirib ki, ilk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər. Bu, hamımız üçün böyük qürurverici hadisədir: "Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə edilmiş qələbə idman yarışlarında da özünü əks etdirəcək. Bir sözlə, əziz idmançılar, mən sizi ürəkdən salamlayıram, sizə uğurlar arzulamaq istəyirəm. Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız. Təbrik edirəm".

**"Qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında adi hala çevrilib"**

**Prezident deyib ki, qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında adi hala çevrilib:** "Mən indicə Konya Hava Limanında yerə enmişəm və hava limanından dərhal buraya, sizinlə görüşə gəlmişəm. Bu, bir ənənədir. Hər dəfə mötəbər beynəlxalq yarışlar ərəfəsində idmançılarla görüşüb onlarla söhbətləşirəm. Bu dəfə də istisna deyil. Bu dəfə V İslam Həmrəyliyi Oyunlarında siz Azərbaycanı təmsil edəcəksiniz. Əminəm ki, ləyaqətlə təmsil edəcəksiniz. Çünki bizim idmançılar artıq bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləmişlər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər".

**"Artıq İslamiadada birinci qızıl medalımız var"**

**Prezident əminliklə ifadə edib ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər:** "Artıq birinci qızıl medalımız var. Komandanı bu münasibətlə təbrik etmək istəyirəm. Oyunların rəsmi açılış mərasimi bu gündür, amma oyunlar artıq davam edir. Əminəm ki, bu gözəl nəticə digər idmançılar üçün də gözəl bir stimul olacaq".

**"Bakıdakı Oyunlar islam həmrəyliyinin güclənməsinə təkan verib"**

**Azərbaycan Prezidenti bəyan edib ki, Bakıdakı Oyunlar islam həmrəyliyinin güclənməsinə təkan verib:** "Bu dəfə bu oyunlar Bakıdan sonra Konyada keçirilir, qardaş ölkədə keçirilir. Əminəm ki, siz özünüzü burada evinizdəki kimi hiss edirsiniz. Əlbəttə ki, bu oyunların Türkiyədə keçirilməsi bizim üçün əlavə imkanlar yaradır. Əlbəttə, biz çox şadıq ki, bu oyunlar qardaş Türkiyədə keçirilir. Əminəm ki, bu oyunlar həm idman bayramı, həm də islam həmrəyliyi bayramı kimi yadda qalacaq. Beş il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında bizim komandamız çox gözəl nəticə göstərmişdir, komanda hesabında birinci olmuşdur. Eyni zamanda, Bakıdakı oyunlar islam həmrəyliyinin güclənməsinə təkan vermişdir. Çünki müsəlman ölkələrinin idmançıları bir müddət bir-biri ilə sıx təmasda olmuşlar. Əminəm ki, burada da siz yeni dostlar tapacaqsınız. Çünki bu oyunlar həm idman yarışıdır, həm də ki, müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir".

**İsmayıl**



# Əliyev-Tatar görüşü…

## Burada siyasi, iqtisadi, ticari maraqlar da var

**"Bu, maraqlı görüşdür. Aralıq dənizi və Türkiyənin buradakı milli maraqlarının müdafiəsi baxımından görünür, qardaş ölkənin Yaxın Şərq siyasətində Kipr amili ön plana çıxacaq".**

Bu fikirləri beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Prezident İlham Əliyevin Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul etməsini "Şərq"ə şərh edərkən deyib. Ekspert bildirib ki, əgər Şimali Kipr Türk Respublikasının rəhbəri ilə görüş reallaşdırılırsa, təbii ki, burada iqtisadi, ticari maraqlar var: "Amma burada bölgə üzərində təsir imkanlarına malik Britaniya da var. Son günlər baş verən hadisələri də ümumi nəzərdə saxlasaq, maraqlı gedişə oxşayır. Azərbaycanın Şimali Kipr Respublikası ilə münasibətləri, Kiprin müstəqilliyinin tanınması və ya Kiprin Türkiyə Cümhuriyyətinə birləşdirilməsi kimi məsələlər də siyasi ədəbiyyatda tez-tez səslənir. Görünür ki, bu mənada qarşı tərəf və qardaş Türkiyə Azərbaycanın da mövqeyini öyrənmək istəyir".

**Çimnaz Şahlar**

# Ermənistan öhdəliklərini yerinə yetirməlidir

## Ceyhun Bayramov: "Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin ediləcəkdir"

**"Ermənistanın müxtəlif bəhanələrlə normallaşma prosesinə zərər vurması heç kəsə fayda verməyəcək". Bunu Ankarada Türkiyə KİV-ə müsahibəsində Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib ki, Ermənistanın nəhayət bunu anlayacağına ümid edirik:**

"Son gərginliyin səbəbi Ermənistanın öhdəliklərini yerinə yetirməməsidir. Bunun əsas səbəbi 44 günlük Vətən müharibəsi başa çatdıqdan və üçtərəfli bəyanatın imzalanmasından sonrakı təxminən 1 il 9 ay müddətində Ermənistanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsidir. Öhdəliklər dedikdə, erməni silahlı qüvvələrinin hələ də Qarabağı tərk etməməsini nəzərdə tuturam. Üçtərəfli bəyanatda Ermənistan belə bir öhdəlik götürmüşdü. Sülhməramlılar bölgəyə daxil olduqda, erməni silahı qüvvələri oradan çıxmalı idi. Lakin orada hələ də erməni silahlı qüvvələri mövcuddur. Onlar avqustun 3-də növbəti dəfə təxribata əl atdılar və gənc bir əsgərimiz şəhid oldu. Buna cavab olaraq Azərbaycan Silahlı Qüvvələri "Qisas" əməliyyatını başlatdı".

**"Ermənistandan təxribatlara son verməsini tələb edirik"**

**XİN başçısı vurğulayıb ki, "Qisas" əməliyyatında düşmənə sarsıdıcı zərbələr endirildi:** "Vasitəçilərin müraciətləri əsasında avqustun 3-ü axşam saatlarında bu əməliyyat dayandırıldı. Ermənistandan təxribatlara son verməsini tələb edirik. Ermənistan öhdəliklərini tam şəkildə yerinə yetirməlidir. Gələcəkdə bənzər bir addım atmamalıdır. Azərbaycanın bu məsələyə yanaşması konkretdir. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin ediləcəkdir. Azərbaycan öz suveren torpaqlarında hər hansı qanunsuz erməni silahlı qüvvələrinin mövcudluğuna icazə verməyəcək. Bu tələbimiz qüvvədə qalır. Dəfələrlə ifadə etmişik, Ermənistan tərəfinin buna ciddi yanaşması lazım olduğuna inanırıq".



**"Azərbaycan və Türkiyənin ortaq layihələri regionda sabitliyi təmin edir"**

**C.Bayramov deyib ki, Azərbaycan və Türkiyənin ortaq layihələri regionda sabitliyi təmin edir:** "Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri hər zaman yüksək səviyyədə olub, iki ölkə son 30 ildə birlikdə çox böyük yol qət edib. O, İkinci Qarabağ müharibəsi dövründə başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, Türkiyə rəsmilərinin, siyasi partiyalarının və bütün türk xalqının Azərbaycana dəstək olduqlarını vurğulayıb: "Bu, bir daha sübut edir ki, Azərbaycan və Türkiyə əlaqələri dünyada bənzəri olmayan səviyyəyə yüksəlib. Dünyada etnik, dini və mədəni olaraq bir-birinə yaxın olan qonşu ölkələr çoxdur. Lakin heç biri Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın deyil. Bunun ikinci bir nümunəsini dünyada görə bilmərik". XİN rəhbərinin sözlərinə görə, Azərbaycan və Türkiyənin ortaq layihələri regionda sülh və sabitliyi təmin edir.

**"Şuşa Bəyannaməsi bugünkü və gələcək nəsillər üçün tarixin önəmli bir parçasıdır"**

**Nazir vurğulayıb ki, 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə yüksəldilib və mövcud qardaşlıq və müttəfiqlik əlaqələri rəsmiləşdirilib:** "Şuşa Bəyannaməsi həm bugünkü, həm də gələcək nəsillər üçün tarixin önəmli bir parçasıdır. Bəyannamədə fərqli sahələrdə olan əlaqələrimiz sistematik şəkildə qeyd edilir. Bəyannamə əlaqələrimizin daha da inkişafına töhfə verdi. Şuşa Bəyannaməsi iqtisadiyyatdan enerjiyə, kommunikasiyadan humanitar sahələrə, beynəlxalq əlaqələrdə koordinasiyadan media sahəsində əməkdaşlığa və ən önəmlisi müdafiə sahəsindəki əməkdaşlığı əhatə edir".

**"Zəngəzur dəhlizi Ermənistanın öhdəliklərindən biridir"**

**Ceyhun Bayramov qeyd edib ki, Zəngəzur dəhlizi Ermənistanın öhdəliklərindən biridir:** "Ermənistan bunu şifahi olaraq qəbul edir, lakin praktikada ləngidir". Nazir, müxtəlif bəhanələrlə Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasına zərər verməyin heç kəsə faydası olmadığını vurğulayıb. Ceyhun Bayramov müzakirələrə paralel olaraq Azərbaycan ərazisində Ermənistanla sərhədə qədər həm quru, həm də dəmir yollarının inşasının müvəffəqiyyətlə davam etdirildiyini, işlərin 50 faizdən çoxunun tamamlandığını qeyd edib. XİN rəhbəri əlavə edib ki, 2023-cü ildə Azərbaycan öz ərazisində bu işləri tamamlayacaq. O qeyd edib ki, Ermənistan tərəfindən prosesin ləngidilməsini nəzərə alaraq, Azərbaycan eyni zamanda, İranla memorandum çərçivəsində Araz çayı üzərində iki körpünün inşasına başlayıb.

**İsmayıl**

# Ermənilər avqustun sonuna qədər Laçını tərk edəcəklər

## Bakının bütün addımları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində atılır



"Rusiya sülhməramlı qüvvələrin komandanlığı da erməni separatçılara onları müdafiə etmək səlahiyyətlərinə və imkanlarına malik olmadıqlarını bildirib"

**Laçın şəhəri və Zabux kəndində işğaldan sonra məskunlaşmış ermənilər torpaqlarımızı boşaltmağa başlayıblar. Ermənistan mediasının məlumatına görə, separatçı Hayk Xanumyan onlara evlərini tərk etmək üçün avqustun 25-dək vaxt verildiyini deyib. Ermənilər bildiriblər ki, Laçın dəhlizi avqustun sonunda Azərbaycana təhvil veriləcəyi üçün bu ərazilər boşaldılır.**

Qeyd olunub ki, Laçın dəhlizinə alternativ yeni yolda işlər yekunlaşmaq üzrədir. Tikinti işləri bitəndən sonra Rusiya sülhməramlı qüvvələrinin həmin yola keçirilməsi nəzərdə tutulur. Ermənistan bir neçə istiqamətdə hərbi-siyasi gündəm yaratmaqla üçtərəfli razılaşmanın müddəalarının yerinə yetirilməsini gecikdirməyə çalışsa da, rəsmi Bakı İrəvanı buna məcbur edir. Ermənilərin etirazına baxmayaraq, köç prosesinə start verilib. Laçının Zabux kəndini tərk edən ermənilər özləri ilə apara bilmədikləri əşyaları, hətta evləri belə yandırırlar. Eyni hal Kəlbəcərdə də təkrarlanmışdı. Ermənilər Laçın işğal olunduqdan sonra azərbaycanlıların evlərinə yerləşiblər. Çıxarkən o evləri yandırmaq erməni əxlaqsızlığından başqa bir şey deyil.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, Xankəndi və ətraf bölgədə cərəyan edən proseslər tamamilə rəsmi Bakının siyasi iradəsindən asılı vəziyyətdədir.** Analitikin sözlərinə görə, "Qisas" antiterror əməliyyatından sonra rəsmi Bakı öz geopolitik iradəsini Ermənistana, erməni separatçılarına, o cümlədən Cənubi Qafqazda maraqları olan supergüclərə qəbul etdirib: "İndi hamı anlayır ki, rəsmi Bakının tələb-şərtlərini yerinə yetirmək lazımdır. Əks halda Azərbaycan Ordusu hərəkətə gətiriləcək və bütün məsələlər hərbi güc müstəvisində yerinə yetiriləcək.

Təbii ki, bu prosesdə Azərbaycanın əli güclüdür. Rəsmi Bakı beynəlxalq hüquq normalarına istinad edir. Bakının bütün addımları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində atılır. Digər tərəfdən, 10 noyabr üçtərəfli anlaşması mövcuddur. Rəsmi Bakının atdığı addımlar da, irəli sürdüyü tələblər də məhz həmin anlaşmadan qaynaqlanır. Rəsmi İrəvan indiyə qədər 10 noyabr üçtərəfli anlaşmasını pozmağa çalışırdı. Ən azından bu sənədlə öz üzərinə götürdüyü öhdəliklərin icrasından yayınmağa cəhd göstərirdi. Ancaq "Qisas" antiterror əməliyyatından sonra Ermənistanın bu pozuculuq fəaliyyətini davam etdirmək şansları artıq qalmayıb. Azərbaycan tərəfi Paşinyan hakimiyyətinin xoşluqla yerinə yetirmək istəmədiyi üçtərəfli anlaşmanı ordunun gücü ilə reallaşdıracağının açıq mesajını verdi. Üstəlik, rəsmi Bakı Laçın dəhlizinə alternativ yoldan istifadə etmək üçün Ermənistana konkret vaxt təyin etdi. Həmin vaxta qədər rəsmi İrəvan alternativ yoldan istifadə üçün bütün zəruri hazırlığı yerinə yetirməlidir. Eyni zamanda, həmin müddətə qədər Laçın şəhəri və dəhlizin üzərindəki digər ərazilər tamamilə boşaldılıb, Azərbaycan Ordusuna təhvil verilməlidir".

**Siyasi şərhçinin fikrincə, bu, qaçılmazdır və Ermənistan istənilən halda, rəsmi Bakının bu tələbini mütləq yerinə yetirməli olacaq:** "Rəsmi Bakı bu məsələni Paşinyan hakimiyyəti ilə müzakirə belə etmir. Sadəcə, Ermənistanı buna məcbur vəziyyətə salıb. Yəqin ki, bu ayın sonlarına doğru Laçın dəhlizinə alternativ yol fəaliyyətə başlayacaq. Heç şübhəsiz ki, dəhlizin üzərindəki ərazilər, o cümlədən də Laçın şəhəri tamamilə boşaldılaraq, Azərbaycanın hərbi-siyasi dairələrinə təhvil veriləcək. Hətta Azərbaycanın Xankəndi və ətraf bölgəsində müvəqqəti dislokasiya olunmuş Rusiya sülhməramlı qüvvələri də Laçın dəhlizindən çəkilməyə və alternativ yol üzərində yeni nəzarət-buraxılış məntəqələri qurmağa başlayıblar. Bu isə o deməkdir ki, Rusiya da rəsmi Bakının siyasi iradəsini artıq qəbul edib. Ermənistanın da bu tələbləri yerinə yetirməkdən başqa çıxış yolu qalmayıb.

Ancaq rəsmi Bakının qarşıya qoyduğu hədəflər yalnız Laçın dəhlizinə alternativ yolun işə salınması ilə məhdudlaşmır. Böyük ehtimalla buna paralel olaraq, rəsmi Bakı Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazilərindən tamamilə çıxarılmasına da nail olacaq. Eyni zamanda, Xankəndi və ətraf bölgədəki silahlı erməni separatçı-terrorçu dəstələri də Azərbaycan ərazilərindən çıxarılacaq.

Əks halda, Azərbaycan Ordusunun növbəti antiterror əməliyyatı ilə erməni terrorçular məhv ediləcək".

**Ekspert vurğulayıb ki, Rusiya sülhməramlıları da artıq erməni terrorçuları müdafiə edə bilmir:** "Rəsmi Bakı rus sülhməramlılara əhəmiyyət vermədən antiterror əməliyyatı keçirmək qətiyyətini artıq sübuta yetirib. Rusiya sülhməramlı qüvvələrin komandanlığının da erməni separatçılara onları müdafiə etmək səlahiyyətlərinə və imkanlarına malik olmadıqlarını bildirib. Bütün bunlar onu göstərir ki, Xankəndi və ətraf bölgədə erməni separatizminin artıq sonu yaxınlaşıb. Hətta ehtimal etmək olar ki, bu proses təxminən 44 günlük savaşın yaxınlaşan növbəti ildönümünə qədər yekunlaşa bilər. Sonrakı mərhələ yalnız Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına, yekun sülh sazişinin hazırlanıb, imzalanmasına indeksləşdiriləcək".

**İsmayıl Qocayev**



**Bakının Səbail rayonu, Yeni Salyan yolu 22 ünvanında yerləşən jurnalistlər üçün inşa edilmiş binanın həyətində abadlıq işləri həyata keçirilib.**

# Jurnalistlər üçün inşa edilmiş binanın həyətində abadlıq işləri görülüb

Bu barədə "Şərq"ə Medianın İnkişafı Agentliyindən (MEDİA) məlumat verilib.

Sakinlərin təklif və müraciətləri nəzərə alınaraq Səbail Rayon İcra Hakimiyyəti və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə aparılan abadlıq işləri çərçivəsində binanın həyətində ümumilikdə 350 kv.m sahədə yeni tamet daş örtüyü salınmış, vətəndaşların asudə vaxtlarının səmərəli təşkili məqsədilə iki yeni söhbətgah, yeni işıq dirəkləri və oturacaqlar quraşdırılıb, o cümlədən yararsız idman qurğuları və attraksionlar yenilənib, eyni zamanda uşaqlar üçün əyləncə meydançaları rezin örtüklərlə üzlənib. Eyni zamanda, burada keçirilmiş iməclik işləri zamanı həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, həmişəyaşıl ağac və gül kollarının əkilməsi də təmin edilib.

Ötən dövr ərzində müvafiq binada yaşayan jurnalistlərin məişət ehtiyaclarının qarşılanması və rahatlığının təmin olunması məqsədilə market istifadəyə verilib, binanın qarşısında bankomat və "BakıKart" yükləmə aparatı yerləşdirilib. Bununla yanaşı, binanın işıqlandırma sistemi əsaslı şəkildə yenilənmiş, ərazidə yaşıllıq sahələrinin artırılması məqsədilə mütəmadi olaraq ağacəkmə kampaniyası keçirilməkdədir.

*Qeyd edək ki, aparılan abadlıq işlərində əsas məqsəd binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.*

# Paşinyan və separatçı Arutyunyan vəziyyəti anlayır

## Alternativ yola keçid zamanı Laçın şəhəri ilə yanaşı rayonun bütün kəndləri də işğaldan azad olunacaq



**"Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə son çıxışlarından birində ermənilərin Laçın və ətraf kəndlərini boşaldacağını bildirmişdi. Paşinyan anlayırdı ki, Azərbaycan alternativ yolu tamamladıqdan sonra 2020-ci il 9 noyabr bəyanatına görə Laçın şəhərinin və ətraf kəndlərin boşaldılmasını tələb edəcək".**

*Bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Paşinyan Ermənistan tərəfdən Azərbaycanla sərhədə yolun çəkilişini ləngidirdi:* "Baş nazir Azərbaycan ərazisindəki alternativ yolu Ermənistanla birləşdirəcək yolun tikintisini radikal müxalifətin mümkün etirazına görə yubadırdı. Ancaq İrəvan hökumətinin qərarı ilə alternativ yolu Ermənistana birləşdirəcək yolun tikintisinə başlanılıb. Paşinyanla yanaşı Qarabağdakı erməni separatçılarının lideri Araik Arutyunyan da Laçın şəhərinin, ətraf kəndlərin və uzun illərdir dəhliz kimi istifadə etdikləri yolun boşaldılması zərurətini anlayır. Təsadüfi deyil ki, Arutyunyanın təlimatı ilə ermənilərə Laçın şəhərinin və ətraf kəndlərin boşaldılması tapşırılıb. Orada yaşayan ermənilərə deyilib ki, yaşayış yerlərini yandırmasınlar. Çünki erməni separatçıları da anlayır ki, Kəlbəcərdə olduğu kimi Laçında da yanğınların törədilməsi onlar üçün vəziyyəti daha da gərginləşdirə və bu, Azərbaycan Ordusunun növbəti anti-terror əməliyyatına şərait yarada bilər. Erməni separatçılarının Kəlbəcər istiqamətində olduğu kimi Laçın və ətraf kəndlərə gedən yolların minalanması da baha başa gələcək. Bu halda erməni separatçılarının alternativ yoldan istifadəsi çətinləşəcək".

Ekspert vurğulayıb ki, alternativ yola keçid zamanı Laçın şəhəri ilə yanaşı rayonun bütün kəndləri də işğaldan azad olunacaq: "Alternativ yolun ətrafında kənd və qəsəbə yoxdur. Laçın şəhərinin və rayonunun azad olunması və orada Azərbaycan Ordusunun möhkəmlənməsi Qarabağ separatçılarının mühasirəsini daha da daraldacaq və əgər separatçılar tərksilah barədə qərar verməzlərsə, bu, növbəti anti-terror əməliyyatlarına şərait yaradacaq. Digər tərəfdən Nikol Paşinyanın Qərbi Zəngəzurda dəhlizə şərait yaratmaması Qarabağla Ermənistanı birləşdirəcək alternativ yolun sonunda Azərbaycan sərhəd və gömrük postunun yaradılmasını sürətləndirəcək".

**İsmayıl**



# Bütün məsuliyyət Britaniya hökumətinin üzərindədir

## Səfirlik əməkdaşları təlimatlarda nəzərdə tutulan çərçivədə hərəkət ediblər

**Böyük Britaniyadakı səfirimiz Elin Süleymanov Londonda Azərbaycan səfirliyinə edilən hücumla bağlı bir sıra məqamlara aydınlıq gətirib. Səfir bildirib ki, hadisə zamanı səfirliyin əməkdaşlarının əksəriyyəti məzuniyyətdə olub. Həmin anda səfirlikdə yalnız 4 nəfər şəxs çalışırdı. Hücum vaxtı isə 3 nəfər səfirlik binasında idi, bunlardan biri xanım əməkdaş olub:**

"Mən özüm Bakıda idim. Hadisə baş verəndən sonra müvafiq görüşlər keçirən kimi dərhal Londona qayıtmışam". Elin Süleymanov səfirlik nümayəndələrinin qınanılmasına da münasibət bildirib. Deyib ki, səfirlik əməkdaşları bütün təhlükəsizlik protokollarına riayət etməlidir. Həmin protokollar belə bir hücum qarşısında hansısa təmas və ya qarşıdurma yaratmaqdan çəkinməyə çağırır: "Üç nəfər diplomatımız səfirlik binasını tərk etmədən böyük bir kütləyə qarşı durub. Səfirlikdə olan vacib sənədləri qoruyub və bir saata yaxın binadan çıxmayıblar. Yəni onlar təhlükəsizlik protokoluna uyğun davranıblar. Əsas prioritet odur ki, vətəndaşlarımız, diplomatik heyətimiz heç bir xəsarət almasın, onlara ziyan dəyməsin". Səfir qeyd edib ki, Britaniya polisinin olaya reaksiyası onu qane etməyib: "Ümumiyyətlə, diplomatik missiyaların təhlükəsizliyi sahəsində Londonda boşluqlar var. Bu narahatlığı istər Britaniya Xarici İşlər Nazirliyi, istərsə də London polisinə bildirmişik".



**Sülhəddin Əkbər:**
"Terror və təxribat riskləri varsa, Azərbaycan hökuməti özü daxili təhlükəsizlik tədbirlərini artırmalıdır. Dünyanın aparıcı və böyük ölkələrinin səfirliklərində ciddi təhlükəsizlik önləmləri alınır"

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq nazir müavini Sülhəddin Əkbər "Şərq"ə bildirib ki, diplomatlar təlimatlarda nəzərdə tutulan çərçivədə hərəkət ediblər.** Onun sözlərinə görə, burada əsas vəzifə səfirliyimizin təhlükəsizliyinə cavabdehlik daşıyan ölkənin üzərinə düşür: "Söhbət Böyük Britaniyadan gedir. Əsas tələb Böyük Britaniyanın müvafiq qurumlarından olmalıdır. Əlimizdə hər hansı video-görüntü yoxdur ki, səfirliyimizin əməkdaşlarının da hərəkətlərinə dair fikir yürüdək. Əgər həqiqətən də səfirin dediyi kimi orada cəmi 3 nəfər diplomat olubsa, o cür hallarda təlimata uyğun davranmalıdırlar. Səfirlik əməkdaşlarının vəzifəsi təhlükəsizliyi təmin etmək deyil. Hadisənin mahiyyətini ancaq istintaq yolu ilə çözmək mümkündür. Araşdırma, təhqiqat aparmadan kənardan baxmaqla hansısa fikir yürütmək qeyri-ciddi yanaşma olardı. Baş vermiş olay ciddi araşdırılmalı, nəticə çıxarılmalıdır. Həmin nəticələr əsasında da həm London, həm də Bakı müvafiq addımlar atmalıdır ki, gələcəkdə belə hallar təkrarlanmasın".

**S.Əkbər vurğulayıb ki, terror və təxribat riskləri varsa, Azərbaycan hökuməti özü daxili təhlükəsizlik tədbirlərini artırmalıdır:** "Dünyanın aparıcı və böyük ölkələrinin səfirliklərində ciddi təhlükəsizlik önləmləri alınır. ABŞ və İsrailin təcrübəsi öyrənilməlidir. Bilmirəm, Azərbaycanın diplomatik nümayəndələrinin qorunması üçün hökumət tərəfindən hansısa addım atılır, yoxsa yox. Əgər indiyədək heç bir addım atılmayıbsa, bundan sonra risklər mütləq nəzərə alınmalıdır. Məsələn, hansı ölkədə terror və təxribat təhlükəsi yüksəkdirsə, həmin yerdəki ABŞ səfirliyinin qorunmasına "dəniz piyadaları" qüvvələri cəlb olunur. Səfirlikdə kəşfiyyat, təhlükəsizlik xidməti və hərbi mühafizə qüvvələri olur".

**İsmayıl Qocayev**

# Payızda karantin rejimi tətbiq oluna bilər

## İnsanlar sıx toplaşma məkanlarından mümkün qədər çəkinməlidir




**Son həftələr koronavirusa yoluxma sayında sürətli artım müşahidə olunur. Ölkədə yeni yoluxma sayı 500 nəfərə çatıb. Bu artım fonunda mətbuata açıqlama verən TƏBİB-in nümayəndəsi, Elmi-Tədqiqat Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini Akif Qurbanov deyib ki, Azərbaycanda COVID-19 pandemiyası ilə əlaqədar müəyyən karantin tədbirləri tətbiq oluna bilər.**

Onun sözlərinə görə, əgər xəstəliyə yoluxma sayı ciddi şəkildə artarsa, xəstəxanaya yerləşdirilənlərin də sayı arta bilər: "Biz üzü payıza doğru gedirik. Havaların soyuması başlayacaq. Ola bilər ki, yoluxma sayının həddən artıq artması stasionara yerləşdirilən xəstələrin həddindən artıq artmasına səbəb olsun. Bu da bizim səhiyyə sistemini yükləyəcək. Ona görə də müəyyən karantin tədbirləri də həyata keçirilə bilər". Mütəxəssis 18 yaşına çatmış bütün şəxslərə vaksinasiya prosesindən kənarda qalmamağı məsləhət görüb: "Şərtlərə müəyyən qədər əməl etməliyik. Sıxlıq olan yerlərdə lüzumsuz təmaslardan çəkinmək, maskalardan istifadə etmək lazımdır".

**Mütəxəssislər isə hesab edir ki, karantin rejiminin sərtləşdirilməməsi üçün hər bir vətəndaşımız məsuliyyətli olmalıdır. Professor Adil Qeybullanın sözlərinə görə, yoluxma sayı sürətlə artdığı üçün karantin qaydalarında müəyyən sərtləşmələrin olması istisna deyil:** "Çünki pandemiya hələ bitməyib. İnsanlar elə bilirlər ki, pandemiya sona çatıb. Nə qədər ki, pandemiyanın bitməsi rəsmi elan olunmayıb, demək, onun içərisində yaşayırıq. Yeni ştamlar da koronavirusun növləri olduğu üçün nəsə fərqli bir mübarizə üsulu yoxdur. Sadəcə, insanlar vəziyyətin pisləşdiyi dövrlərdə daha diqqətli olmalı və sıx toplaşma məkanlarından mümkün qədər çəkinməlidir. Vaksinasiya prosesinə qatılmayanlar bu prosesə mütləq qatılmalıdırlar. Buster doza almayan vətəndaşlar da gücləndirici doza vurdurmalıdırlar. Çünki hazırda mövcud olan vaksinlər xəstəliyin daha yüngül keçməsi və ölümlərin azalması istiqamətində təsirlidir".

Professorun sözlərinə görə, müəyyən qapanmalar olsa da sərt karantin tətbiq olunmamalıdır. Ötən illər ərzində iqtisadiyyat, təhsil bundan xeyli ziyan çəkdi: "Ola bilər ki, qapalı mühitdə maska taxılması yenidən tətbiq olunsun, kütləvi tədbirlərdə müəyyən məhdudiyyətlər edilsin. Çox sərt tədbirlərin olacağını düşünmürəm".

**Şəymən**

# "Anar müəllim AYB sədrliyindən getsə çox ciddi problemlər yarana bilər"

## Əsəd Cahangir: “Yoxluğu mütləq hiss olunacaq”



“Qurultayın layiqli namizədi seçəcəyinə əminəm”

**Azərbaycan Yazıçılar Birliyinin qurultayının yaxın zamanlarda keçiriləcəyi xəbərindən sonra bu məsələ yazıçı və şairlər tərəfindən ciddi şəkildə müzakirə edilir. Bir sıra şair və yazıçılar hesab edirlər ki, Anar 30 ildir quruma rəhbərlik edir və onun artıq bu postu tərk etməsi zamanın tələbidir.**

Bu məsələyə xüsusən də gənc yazarlar daha həssas yanaşırlar. Onlar hesab edir ki, növbəti qurultayda alternativ namizədlər olacaq. Ümumiyyətlə, AYB sədrliyi uğrunda mübarizə aparacaq yazarlar arasında gənclərin də olub-olmayacağı sual doğurur.

Bu müzakirələr fonunda ”Qurultaya hazırlıq prosesi necə gedir?”, ”Konkret tarix bəlli olubmu kimi suallara cavab almaq üçün ədəbi tənqidçi Əsəd Cahangirlə əlaqə saxladıq. O isə bu barədə konkret nəsə bilmədiyini və qurultaya hazırlıq prosesi, qurultayın tarixi ilə bağlı suallara Anar müəllimin cavab verməsinin daha doğru olduğunu dedi:

- Bu suala cavab vermək mənim səlahiyyətlərim xaricindədir.

**- Bəs, qurultaydan şəxsi gözləntiləriniz nədir? AYB-də sədr dəyişikliyi olacaqmı?**

- Qurultaydan gözləntilərim çoxdur, amma sədr dəyişikliyi gözləmirəm. Arzu edirəm ki, Anar müəllim yenə də sədrimiz olaraq qalsın. Namizədliyini versə, yenə də səsimi ona verəcəm.

**- Gənc yazarlar Sizin kimi düşünmür axı?! Əksəriyyət Anar müəllimin AYB sədrliyindən getməsini istəyir...**

- Anar müəllimin AYB sədrliyindən getməsi bu qurum üçün yaxşı heç nə vəd etmir. Hətta Birlikdə çox ciddi problemlər yarana bilər. Yazıçılar Birliyinin Anara çox ehtiyacı var. Onun Azərbaycan ədəbiyyatı üçün yarımçıq qalan planları, şair və yazıçıların sosial rifahının yaxşılaşdırılması üçün başa çatdırmaq istədiyi işləri var. Yazarlar üçün ev alıb vermək niyyətindədir. Məsələ artıq həll olunub da deyə bilərik. Şabrandakı Yaradıcılıq və İstirahət Mərkəzi təhvil verilməlidir. Bütün bu işlər başa çatandan sonra Anar müəllim sədrlikdən getmək istəsə, qurultay yeni sədr seçəcək. Amma indiki halda bir sıra problemlərin həlli üçün Anarın AYB sədrliyində qalmasını labüd hesab edirəm. Əlbəttə, bu mənim subyektiv fikrimdir. Təbii ki, son sözü Anar müəllim deyəcək. Ancaq onu bilirəm ki, Anar Rzayev növbəti qurultayda öz namizədliyini irəli sürsə, yenə də çoxluq ona səs verəcək. Getmək istəsə də, digər namizədləri dəyərləndirəcəyik. Hələ bilmirəm namizədlər kim olacaq və kimə səs verəcəm. Hər halda layiqli birinə səs verməyi özümə borc bilirəm.

“30-40 yaş arasındakı hər hansı bir şəxsə Yazıçılar Birliyinin sədrliyini həvalə etmək absurd olar. Böyük bir ədəbi birliyi idarə etmək üçün bu yaşlarda olan gənc çox təcrübəsiz hesab olunur”

**- Anar namizədliyini verməsə, Siz öz namizədliyinizi irəli sürəcəksiniz?**

- Mənim nə belə bir planım, nə də arzum var. AYB sədri olmaq çox ağır və məsuliyyətli bir vəzifədir. Xüsusilə, Anar müəllim kimi görkəmli bir şəxsiyyətin uzun illər rəhbərlik etdiyi quruma namizəd olmaq, onun gedişindən sonra yaranacaq boşluğu doldurmaq elə də asan olmayacaq. Bu vəzifəyə namizəd olacaq şəxslər bunu bilməli və ona uyğun addım atmalıdır. Anar müəllim getsə, yoxluğu mütləq hiss olunacaq. Yeni sədr kim olur-olsun, bu dəyişiklik onun xeyrinə olmayacaq. Aradakı fərq diqqət çəkəcək. Sualınıza gəlincə isə Anar Rzayev könüllü getmək istəsə, şübhəsiz ki, qurultay namizəd olacaq şəxslər arasından ən layiqlisini seçmək məcburiyyətində qalacaq və biz də həmin şəxsin sədrliyini dəstəkləyəcəyik. Mənim özümə gəldikdə isə əsla namizəd olmaq niyyətində deyiləm. Hətta birbaşa AYB sədrliyini təklif etsələr belə, imtina edərəm. Ötən bu illər ərzində sədrlik vəzifəsinin nə qədər çətin olduğunu, Anar müəllimin nə necə əziyyət çəkdiyini, hansı problemlərlə üzləşdiyini çox yaxşı bilirəm. 20 ildən çoxdur proseslərin içərisindəyəm və hər şeyi gözlərimlə görmüşəm.

**- AYB üzvlüyündə kifayət qədər istedadlı adamlar təmsil olunur. Sizcə, bu ağır işin öhdəsindən kim gələ bilər, Anardan başqa ...**

- Bu suala cavab vermək və ad çəkmək çətindir. Kiminsə adını çəksəm, AYB sədri olmaq istəyən digər namizədlər məndən inciyərlər. 20 ildən artıqdır onlarla bir yerdə işləyirəm, aramızda xətir-hörmət var. Heç kimi özümdən narazı salmaq istəmirəm. Qurultayın layiqli namizədi seçəcəyinə əminəm. Həm də əvvəldə də qeyd etdim ki, hələ ki kimlərin namizəd olacağı məlum deyil. Bəlkə də AYB sədrliyinə namizədliyini bizim təxmin etdiyimiz şəxslərin heç biri verməyəcək. Tamamilə kənar bir şəxs AYB sədri olacaq?!

**- Gənc yazarlar arasında AYB sədrliyinə layiq bildiyiniz kimsə varmı?**

- Ədəbiyyatdakı gənclik anlayışı ilə həyatdakı gənclik anlayışı çox fərqlidir. Ədəbiyyat üçün 40-50 yaşlı bir yazar yeni nəsil nümayəndəsi sayılır. Həyatımızda isə bu yaşlarda biri bizim üçün ahıl şəxs hesab olunur. Siz gənc yazar deyəndə hansı yaş kateqoriyasını nəzərdə tutursunuz?

**- 35-40 yaşlarında olan yazarları...**

- 30-40 yaş arasındakı hər hansı bir şəxsə Yazıçılar Birliyinin sədrliyini həvalə etmək absurd olar. Böyük bir ədəbi birliyi idarə etmək üçün bu yaşlarda olan gənc çox təcrübəsiz hesab olunur. 2400 nəfərlik və əksəriyyətinin özünü ziyalı, istedadlı hesab etdiyi adamlara rəhbərlik etmək, onların hamısını razı salmaq, ortaq məxrəcə gətirmək çox mürəkkəb, bəlkə də mümkünsüz məsələdir. Bu yaşlarda birinin nəinki ədəbiyyat, həyat təcrübəsi belə yetəri qədər deyil. AYB sədrliyinə namizəd olacaq şəxsin ən azı 45-50 yaşı olmalıdır. Yaşı 65-i keçən yazıçılar da sədrliyə namizəd olmasa daha yaxşıdır. Əgər Anar müəllim namizədliyini verməsə, qurulyatın 45-65 yaşlı namizədlər arasında seçim etməsini daha doğru hesab edirəm. Bəlkə də sizə qəribə gəlir ki, 60 yaşında biri necə gənc yazar olur!? Amma burada təəccüblü heç nə yoxdur. Bu yaş kateqoriyasına daxil olan şəxslər ədəbiyyatda yeni nəsil hesab olunur.

Qeyd edək ki, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq Yazıçısı Anar təşkilatın qurultayına hazırlıq məsələlərindən danışıb. AYB sədri APA-ya bildirib ki, qurultaya hazırlıq prosesi yekunlaşıb. ”Hazırlıqlar yekunlaşıb. Gələn həftə Şabranda yerləşən Yaradıcılıq Evinə gedib oradakı vəziyyətlə tanış olacağam. Əgər uyğun şərait varsa, qurultay orada keçiriləcək”, - Anar vurğulayıb.

Xalq yazıçısı qurultayın tarixinə də toxunub. ”Qurultayı isə sentyabrın ikinci yarısında keçirməyi nəzərdə tutmuşuq”, - Anar qeyd edib.

**Şəymən**



# Dəhşətli müharibə Zelenskinin psixologiyasını tamam pozub

## Qərb ölkələrinin rus xalqı ilə arasına ”divar hörməsi” əks effekt verər

**Ukrayna Prezidenti V.Zelenski Kiyevə silah və maliyyə yardımı göstərən Qərb ölkələri qarşısında yeni tələblər irəli sürüb. Zelenski bildirib ki, Qərb ölkələri rusların öz ərazilərinə girişini qadağan etməlidir. Onun sözlərinə görə, ən mühüm sanksiyalar sərhədlərin bağlanmasıdır, çünki ruslar başqasına məxsus torpaqları alırlar:**

”Ona görə də onlar fəlsəfələrini dəyişənə qədər öz dünyalarında yaşamalıdırlar”. Zelenski əlavə edib ki, bu qadağa hətta hakimiyyətin hərəkətlərinə etiraz olaraq ölkəni tərk etmiş Rusiya vətəndaşlarına da şamil edilməlidir: ”Rusiyanın bütün əhalisini hesaba çəkmək mümkündür. Çünki hökuməti onlar seçiblər, amma hökumətlə mübarizə aparmırlar”. Xatırladaq ki, müharibədən sonra 600-dən çox rusiyalı oliqarx, yüksək rütbəli hərbçilər, şirkət sahibləri, biznesmenlərlə yanaşı, Rusiya Prezidenti Vladimir Putin və Xarici işlər naziri Sergey Lavrov sanksiyalara məruz qalıblar. Rusiyada təşkil olunacaq yarışlar təxirə salınıb, bu ölkənin adı mühüm tədbirlərdən və təşkilatlardan çıxarılıb.

“Belə bir addım atılarsa, ruslar tamamilə özlərinə qapanar və Qərbin təsir imkanları sıfıra enər”

**Politoloq İlqar Vəlizadə ”Şərq”ə bildirib ki, uzun sürən müharibədən, fasiləsiz və gərgin iş qrafikindən sonra Ukrayna prezidentinin psixoloji vəziyyəti pozulub. Analitikin sözlərinə görə, aylardır davam edən dəhşətli müharibənin psixoloji fəsadları özünü açıq-aşkar göstərir:** ”Belə vəziyyət Zelenskinin emosional çıxışlarına səbəb olur. Ukrayna prezidentinin Türkiyə ilə bağlı da əsassız tənqidi fikirləri gündəmə gəlmişdi. Ruslarla bağlı dedikləri də bu qəbildəndir. Siyasətçilər ən gərgin anda belə məsələlərə təmkinlə yanaşmalı, ehtiyatlı açıqlamalar verməlidir. Zelenski hər addımı ilə aktyor olduğunu, real siyasətdən baş çıxara bilmədiyini göstərir. Görünür, sənət adamları daha çox emosional və çılğın olurlar”.

**İ.Vəlizadə bəyan edib ki, Qərb ölkələrinin rus xalqı ilə arasına ”divar hörməsi” əks effekt verər:** ”Belə bir addım atılarsa, ruslar tamamilə özlərinə qapanar və Qərbin təsir imkanları sıfıra enər. Rusiyada ukraynapərəst açıqlamalar, mövqelər tamamilə aradan qalxar. Rusiya iqtidarı cəmiyyəti daha rahat mobilizasiya etmək imkanı qazanar. Deyər ki, ”baxın, rus olduğumuza görə bizi heç yerdə qəbul etmirlər”. Yəni Qərb və Ukrayna üçün mənfi təsirlər daha çox olar. Çünki Zelenski müharibəyə görə Putin hökumətini deyil, bütövlükdə rus xalqını suçlayır, onları ittiham edir. O baxımdan Zelenskinin çağırışının reallaşması mümkün görünmür”.

**İsmayıl**

# Heç bir ölkə Tehranın nüvə silahına malik olmasını istəmir

## Təl-Əviv bundan sonra İranı ifşa etməkdən vaz keçməyəcək





**İranın nüvə proqramının dinc məqsədlər üçün istifadə edilməsinə dair 2015-ci ildə qəbul edilmiş razılaşmanın bərpasına dair diplomatik çək-çevirlər davam edir.**

Danışıqların yenidən zühur etməsi bu yaxınlarda İranın nüvə silahı hazırlaması üçün resursunun olduğunu deməsindən sonraya təsadüf edir. Beynəlxalq mətbuatda çıxan informasiyaların, yazılan təhlillərin, verilən rəsmi açıqlamaların ruhu isə göstərir ki, İrana öz ambisiyasından müvəqqəti də olsa geri çəkilməsi üçün təsirlər göstərilib. Qərb də Tehranın bəzi tələbləri qarşısında jest göstərməyə hazırlaşır.

Bunun izləri Vyanada keçirilən danışıqların xarakterinə də hopub.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, nüvə sazişinin yenilənməsi üçün ”yekun” mətnin hazırlanması fikri diplomatik məkanda aktuallıq qazanıb.** Ekspertin sözlərinə görə, danışıqlar Avropa İttifaqının vasitəçiliyi ilə keçirilir və müzakirələrdə Rusiya, Böyük Britaniya, Fransa, Çin və İran təmsilçiləri iştirak edirlər: ”ABŞ isə danışıqlarda birbaşa iştirak etmir. Hərçənd, Vaşinqtonu təmsil edən diplomatlar da Vyananı ”su yoluna” döndərir və son müzakirələr də elə iki ölkə diplomatları arasında baş tutur. Yuxarıda yekun anlayışını ona görə dırnağa aldıq ki, ortada hələ belə bir mətn yoxdur. Ola bilsin, ümumi və konseptual razılıq əldə edilib. Lakin həmin ümumi yanaşmanın detallarını işləyib-hazırlamaq əməlli zaman aparacaq və gərgin diplomatik-siyasi danışıqlardan sonra baş tutacaq. İranla şifahi sövdələşmə ABŞ rəhbərliyinə çatdırılmalıdır və yeni sazişin bağlanması üçün də Vaşinqton öz səylərini danışıqların tərəfi olan digər ölkələrlə də birləşdirməlidir”.

**Analitikin fikrincə, müzakirələrin rəngini qaraldan danışıqların tərəfi olmayan, kənar qüvvə İsraildir:** “Təl-Əvivin Tehrana qarşı qətiyyətli direnişi danışıqların mahiyyətini mürəkkəbləşdirir. İsrail iki ay öncə, İranın Beynəlxalq Atom Enerjisi Agentliyinin 2004 və 2005-ci illərə aid bir neçə sənədlərini nüvə araşdırmalarından sistemli şəkildə yayınmaq üçün oğurladığını ictimailəşdirmişdi. İsrail hər vəchlə sübut etməyə çalışır ki, bağlanacaq istənilən saziş Tehranın xeyrinədir və İrana nüvə silahı qazandıracaq əsaslardır. Keçən iki ay bu sənədlərlə İrana təzyiq mexanizmləri yaratmaq üçün istifadə edildi. Lakin İranın nüvə silahı əldə etmək ehtimalı ortaya çıxandan sonra həmin fayllar seyfə qoyularaq ağzı bağlanmış kimi görünür. Məsələn, Avropa İttifaqında belə mövqe var ki, İranın bir neçə obyektində aşkar edilən qeyri-müəyyən uran izlərinin araşdırılması Beynəlxalq Atom Enerjisi Agentliyinin səlahiyyətində olan texniki məsələdir. Bunun 2015-ci il sazişinin bərpası üçün aparılan danışıqlarla əlaqəsi yoxdur. Üstəgəl, Tehran uran izlərinin mənşəyi ilə bağlı tutarlı cavablar verərsə, Agentliyin Rəhbərlər Şurası nüvə materialına dair araşdırmanı bağlayan qətnamə qəbul edə bilər. Birbaşa olmasa da, bu, İsrailin tələblərinin nisbətən arxa plana atılması anlamına gəlir”.

**A.Kərimova görə, Təl-Əviv bundan sonra İranı ifşa etməkdən vaz keçməyəcək:** ”Qərbin çəkicini Rusiya, Çin və İran üzərinə qaldırması bu üç ölkəni nüvə sazişi mövzusunda platforma yaratmasını aktuallaşdırır. Amma istər Pekin, istərsə də Moskva Tehranın nüvə silahına malik olmasını istəmir. Bu istək Qərbə sərf edir, İsrail üçün nisbi nikbinlik, Tehran üçün isə bədbinlikdir. 2015-ci il sazişinin canlandırılmış variantının qüvvəyə minməsi qarşılıqlı göz yummalar, tərəflərin bir-birindən əhəmiyyətli zəmanətlər istəməsi ilə baş tuta bilər. Həmin qarşılıqlı güzəştlər məqbul hesab edilsə, İran nüvə təsisatlarının təftişinə heç bir əngəl yaratmamalıdır və şəffaflıqdan yayınan addımlardan çəkinməlidir. Qərb isə istədiyi zaman sazişi tərk etməyəcəyinə və İrana qarşı sanksiyaları qaldırmağa zəmanət verməlidir”.

**İsmayıl Qocayev**

# Paşinyan səhvini başa düşüb

## Türkiyə Ermənistanın Rusiyadan qaçışı üçün yeganə yoldur

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 13-cü Səfirlər Konfransında çıxış edib. O bildirib ki, Qurban bayramında Ermənistan Baş naziri Nikol Paşinyanla çox konstruktiv telefon danışığı aparıblar. Həmçinin Türkiyə rəhbəri bəyan edib ki, Ermənistan prosesləri doğru oxuyaraq Azərbaycan və Türkiyənin səmimi çağırışlarına qarşılıq verməlidir:**



“Sərhədlərin delimitasiyasından sonra Ermənistanla problemimiz qalmayacaq və o bizim əməkdaşlıq edəcəyimiz ölkədir”

”Bu olarsa, bölgəmizin qısa müddət ərzində sabitliyə qovuşacağına inanıram. Biz bu tarixi fürsətin əldən çıxmaması üçün çalışırıq. Bu günədək Azərbaycanla birgə bir çox addım atmışıq. Radikal erməni çevrələrinin sabotajına rəğmən, Qafqazda daimi sülh yolunda önəmli məsafə qət etmişik”.

Eyni konfransda iştirak edən ATƏT-in baş katibi Helqa Şmitin sözlərinə görə, Türkiyənin Ermənistan və Azərbaycan arasında normallaşma prosesinə töhfələri və maraqlı tərəflərlə işləməsi ATƏT üçün çox önəmlidir: ”ATƏT-in baş katibi bəyan edib ki, dialoq və vasitəçilik diplomatiyanın ən mühüm elementləridir və ATƏT-in bu sahədə Türkiyənin dəstəyinə ehtiyacı var. Türkiyə diplomatiyası dünyanın ən peşəkar diplomatik missiyalarından biridir. Türkiyə Avropa ilə Asiya arasında körpü rolunu oynayır”.

**Türkiyənin Ermənistanla Qərb arasında körpü olduğunu deyən siyasi analitik Turab Rzayev ”Şərq”ə bildirib ki, əsas məqsədimiz Ermənistanın Rusiyadan uzaqlaşmağı olmalıdır:** ”Ermənistan Rusiyanın forpostudur. Ermənistanda Rusiyanın iki hərbi bazası var. Bu ölkənin hava sahəsini və sərhədlərini Rusiya qoruyur. Belə vəziyyətdə Nikol Paşinyan Rusiyanın caynağından qurtulub qərblə tərəfdaşlığa getmək istəyir. Bunun üçün isə Türkiyədən başqa heç bir alternativ yoxdur. Türkiyə həm fiziki sərhəd kimi, həm də NATO-nun bir üzvü kimi Ermənistanın Rusiyadan qaçışı üçün yeganə yoldur. Ermənistan Azərbaycanla müharibə şəraitində olduğu üçün rəsmi Ankara onlara bu şansı vermirdi. İndiki vəziyyətdə Paşinyan hakimiyyəti səhvini başa düşüb. Onlar həm Azərbaycan, həm də Türkiyə ilə münasibətləri yumşaltmaq istəyir. Bu vəziyyətdə Paşinyan hakimiyyətini yıxaraq yerinə revanşist və müharibə istəyən ”Qarabağ klanı”nın hakimiyyətə gəlməsinə şərait yaratmamalıyıq. Əsas məqsədimiz Ermənistanda Qərb dəyərlərinə uyğun demokratik bir hökumətin formalaşması olmalıdır”.

**Ekspert qeyd edib ki, digər əsas məsələ isə ”Rəsmi İrəvan Türkiyənin bu çağırışına cavab verəcəkmi”sualının cavabıdır:** ”Ermənistan hakimiyyəti rəsmi Bakının və Türkiyənin sülh çağırışına artıq cavab verib. Buna sübut kimi Ermənistanın Təhlükəsizlik Şurasının bəyanatını göstərmək olar. Onlar dedilər ki, biz Qarabağ ermənilərinin hüquq və təhlükəsizlik müdafiəçisi deyilik. Bu, açıq şəkildə Qarabağ erməniləri bizdən əl çəksin deməkdir. Bu çağırış Türkiyə və Azərbaycanda müsbət qarşılandı. Hazırkı Ermənistan hakimiyyəti Araiki və tayfasını ölkəyə buraxmır. Sərhəddi Laçında bağlayaraq onlar ölkəyə gələn kimi ya həbs, ya da deportasiya edir. Bu vəziyyətdə biz də, Türkiyənin və Brüsselin vasitəçiliyi ilə Ermənistanla olan münasibətləri normallaşdırmalıyıq. Sərhədlərin delimitasiyasından sonra Ermənistanla problemimiz qalmayacaq və o bizim əməkdaşlıq edəcəyimiz ölkədir.

Biz əsas diqqəti Qarabağa yönəltməliyik. Bütün bunlardan sonra Qarabağ erməniləri və oradakı şovinist tör-töküntülər bizim daxili məsələmizə çevriləcək. Bu, Azərbaycan və Türkiyə üçün uyğun perspektivdir”.

**Nihat Müzəffər**



# Gizli plan...

## “Azərbaycan vətəndaşı olmaq istəyən ermənilər indiyə qədər harda idi?”

**Son günlər ərzində bir neçə Ermənistan vətəndaşı Prezident İlham Əliyevə müraciət edərək Azərbaycan vətəndaşlığını qəbul etmək istədiklərini bildiriblər. Vaqe Qambaryan adlı erməni və tanınmış bloqer İşxan Verdyan Azərbaycan vətəndaşı olmaq istəyənlər sırasındadır.**

Adları çəkilən ermənilər sosial şəbəkə vasitəsilə videomüraciət yayaraq, Ermənistan pasportundan imtina etdiklərini açıqlayıblar.



“Nə etsək də faydasızdır. Heç vaxt türkləri, müsəlmanları sevməyəcəklər. Xam xəyallara düşmək lazım deyil”

Qambaryan müraciətində Bakıya gələrək yaxınlarını ziyarət etmək arzusunda olduğunu söyləyib. Bloqer İşxan Verdyan isə müraciətində bildirib ki, Ermənistana getməyən ermənilər Azərbaycan vətəndaşlığını alaraq cəmiyyətin bir hissəsinə çevrilməli olacaqlar. Onun sözlərinə görə, ermənilər Qarabağda təhlükəsiz və hətta gözəl şəkildə yaşaya bilərlər. Bu arada islamı qəbul edən erməni qadın Aqunik Abovyan da Prezident İlham Əliyevə müraciət edib və Bakıya gəlmək üçün icazə istəyib. Bu barədə müraciətini o, sosial şəbəkə hesabından paylaşıb. Abovyanın sözlərinə görə, Azərbaycanda olmaq, həyat yoldaşının və dostlarının vətənini görmək onun ən böyük arzusudur. Başqa bir diləyi isə Qarabağa getməkdir: ”Əgər mümkünsə, məhz Şuşada məsciddə namaz qılmaq kimi xəyalım var”. Ermənilərin müraciəti birmənalı qarşılanmır. Bəziləri hesab edirlər ki, belə çağırışlara dərhal müsbət cavab verilməlidir ki, presedent olsun. Digərləri isə bunun təxribat ola biləcəyindən ehtiyatlanırlar.

**AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə deyib ki, o, ümumiyyətlə ermənilərin səmimiyyətinə inana bilmir. Partiya rəhbəri bildirib ki, həddindən artıq radikallıq meyilləri, yaxud ara-sıra sərgilənən humanizm təşəbbüsləri ”Böyük Ermənistan” oyununun tərkib hissəsidir:** ”Adıçəkilən şəxslərin indiki məqamda müraciət etməsi gizli plana əsaslanır. İrəvan hər zaman çalışıb ki, Azərbaycanı ”təcavüzkar”, ”müharibəni davam etdirmək istəyən ölkə” kimi qələmə versin. Özlərini isə ”sülh göyərçini” obrazında dünya ictimaiyyətinə sırımağa cəhd ediblər. Guya indiyə kimi türk qanı axıtmaqdan həzz duyan ermənilər o qədər ”sülhpərvər” olub ki, hətta ”düşmənlə” birgəyaşayışdan dəm vurmağa başlayıblar. Azərbaycan vətəndaşı olmaq istəyən, müharibənin əleyhinə olduqlarını söyləyən ermənilər 30 il ərzində harada idi? Niyə indiyədək səsləri çıxmırdı? Azərbaycan Ordusu öz gücü hesabına torpaqlarını işğaldan azad etdikdən sonra Ermənistan vətəndaşları arasında ”sülh carçıları” peyda oldu. Qarabağdakı ermənilərin Azərbaycan vətəndaşlığını qəbul etməsi kifayətdir. Ermənistandan 5-10 nəfərin gəlməsinə ehtiyac yoxdur. Artıq onları yaxşı tanıyırıq”.

**T.Abbaslı vurğulayıb ki, tarix boyu ermənilərə qucaq açmışıq və hələ də bunun ağrısını yaşayırıq:** ”Azərbaycanın ən gözəl yerlərində məhz ermənilər məskunlaşıb. Ancaq ilk fürsətdə xəyanət ediblər, xəncəri kürəyimizə saplayıblar. Ermənilərə inancımız yoxdur. Onlara əlavə status, əlahiddə hüquq verərək dünyaya nəyisə sübut etməyə çalışmamalıyıq. Nə etsək də faydasızdır. Heç vaxt türkləri, müsəlmanları sevməyəcəklər. Xam xəyallara düşmək lazım deyil”.

**İsmayıl Qocayev**

# "Əvvəllər dost çevrəsi qazana bilmirdim"

## Tural Rəhimov: “İnsanlarla ünsiyyət qurmaqda çətinlik çəkirdim”



**İnsanlar arasında nadir rast gələnən xəstəliklərdən biri də albinizmdir. Bu xəstəliyə tutulan insanlar fərqli görünüşləri ilə ətrafdakıların diqqətini həmişə özlərinə cəmləyirlər. Onlar elmi dildə albinos adlanırlar. Albinosların sümüklərinin tərkibində fosforun miqdarının həddindən çox olması onları adi insanlardan fərqləndirən başlıca cəhətlərdəndir. Buna görə bəziləri onları fosfor adam da adlandırır. Müsahibim də öz görünüşü ilə diqqət çəkən, insanların marağına səbəb olan gənc albinos Turaldır.**

*- Tural, səni yaxından tanıyaq...*

- Mən Tural Rəhimov. 2000-ci ildə Beyləqan rayonunda anadan olmuşam. Dünyaya albinos fərd kimi gəlmişəm.

**- Albinizm nədir?**

- Albinizm irsi yolla ötürülən genetik faktor, bir sağlamlıq vəziyyətidir.

**- Maraqlıdır, dünyada albinoslara qarşı münasibət necədir?**

- Müxtəlif dünya ölkələrində albinoslara qarşı müəyyən fiziki və mənəvi şiddətlər var. İnsanların albinos övladları olduqda onları küçəyə atırlar. Həmin uşaqların sonrakı aqibəti əksər hallarda bilinmir. Afrika və xüsusilə Tanzaniyada isə hər il iyirmiyə yaxın albinos öldürülür.

**- Albinosların fosforlu sümükləri nəyə görə əhəmiyyətli sayılır?**

- Bu, qara magiya ilə bağlıdır. Bəzi insanlar elə düşünür ki, albinosların fosforlu sümüklərini evdə saxladıqda həmin sümüklər evə çoxlu xeyir, bərəkət, ruzi verir. Bu kimi səbəblərdən albinosların orqanları qəddarcasına onlardan alınır.

**- Ölkəmizdə albinosların orqanlarına görə öldürülməsi ilə bağlı hansısa bir fakt bilirsən?**

- Ölkəmizdə bu hala rast gəlməmişəm. Amma yenə də düşünürəm ki, dövlət albinosları qorumalı, onlara psixoloji dəstək göstərməlidir.

**- Azərbaycanda albinoslar üçün xüsusi təşkilat var?**

- Xeyr, bu haqda məlumatım yoxdu. Türkiyədə ”albinizm cəmiyyəti” var. Mənim həmin cəmiyyətin ölkəmizdə də yaradılması üçün bir neçə təşəbbüsüm olsa da, nəticəsiz qaldı. Əgər biz inkişaf etməkdə olan ölkəyiksə, bizdə də bu, mütləq şəkildə olmalıdır.

**- Smartfonlardan istifadə albinoslar üçün çətinlik yaradır?**

- Rəqəmsal eraya keçirik. Rəqəmsal erada smartfonlar dünyaya hökmranlıq edəcək. Bu isə biz albinosların yaşamını daha da çətinləşdirəcək. Çünki bizdə göz problemləri olur. Təbii ki, belə olduqda bir sıra narahatlıqlar yaşayacağıq.

**- Albinizm fərqlilik, yoxsa xəstəlikdir?**

- Albinizmin fərqlilik və yaxud da xəstəlik olduğu hələ ki məlum deyil. Dünya bu mövzuda tərəddüd içindədir. Ümumdünya Səhiyyə Təşkilatı belə bu sualı cavablandırmaqda çətinlik çəkir. Albinizm bir tərəfdən autizm, daun kimi fərqindəlikdir. Digər tərəfdən isə albinosların gözləri dünyaya gəldikləri andan zəif olduğu, müalicə oluna bilmədiyi üçün xəstəlik sayıla bilər.



“Amma bir müddətdən sonra anladım ki, özümü qəbul etməliyəm və cəmiyyətdən qopmaq alınmır. Özümü qəbul edib sevməyə başladıqda, fərd olduğumu qəbul etdikdə komplekslərim də qırılmağa başladı”

**- Bildiyim qədərilə albinosların göz rəngi də tez-tez dəyişir. Bu necə baş verir?**

- Albinosların gözləri mühitdən mühitə dəyişir. Gecə saatlarında qırmızı, gün ərzində isə məsələn, açıq havada qəhvəyi və ya yaşıl olur. Bir növ buqələmun kimi.

**- Sən həm də yazıçısan. Yazıçılıq fəaliyyətindən danışaq...**

- İlk başlarda kiçik hekayələr yazırdım. Daha sonra özümdəki istedadı gördüm və psixoloji mövzuda məqalələr yazmağa başladım. Ən sonda isə kitab yazmağa qərar verdim. Çünki kitabda özünü ifadə imkanları daha geniş olur. İlk kitabım ”Məni belə çək” romanıdır. Kitab insanların marağına səbəb oldu və üç ay ərzində 200 tirajı satıldı. Çox gözəl ”feedback”lər aldım. İkinci kitabım isə bir neçə ay bundan öncə çapdan çıxan ”Özünə yaxşı bax”dır. Bu kitab isə gözlədiyimdən daha çox insanın qəlbinə yol tapdı.

**- Tural, niyə ”Ovodya” təxəllüsünü seçmisən?**

- ”Ovodya” ibrid dilində ”Tanrının xidmətçisi” deməkdir. Bir sıra dinləri araşdırırdım. Qarşıma bu ad çıxdı, olduqca diqqətimi çəkdi və özümə təxəllüs seçdim. Albinos yazıçı olmağım oxucuların marağına səbəb olur. Hazırda üçüncü kitabımın üzərində çalışıram.

**- Kitablarının satış səviyyəsi səni qane edir?**

- İlk iki kitabın satış səviyyəsi hə. Bundan sonrakının satışı isə oxuculardan asılıdır. Bu haqda dəqiq bir şey deyə bilmərəm.

**- Albinizmlə bağlı hər hansısa bir statistika var?**

- Statistika çox sadədir. Dünyada hər 17 min insandan biri albinosdur. Onların xüsusi bir günü var. 13 iyun albinizm və fərqindəlik günüdür. 2014-cü ildə BMT hər il 13 iyulun albinizm fərqindəlik günü kimi qeyd olunması haqqında qərar qəbul edib. 2020-ci ildən isə müxtəlif şüarlar altında bu gün qeyd olunmağa başlanıb. Bu, albinoslar üçün çox böyük təşəbbüs, hətta deyərdim ki, bir jestdir.

**- Səncə, ölkəmizdə insanlar albinizm haqqında kifayət qədər məlumatlıdır?**

- Təəssüflər olsun ki, yox. Hətta insanlar bunu sosial şəbəkələrdə hekayələrində belə paylaşmırlar. Diqqət edənlər olur, sadəcə bu, çox azdır.

**- Albinosların bir sıra kompleksləri olur. Sən bu kompleksləri necə dəf etmisən?**

- Komplekslərin olması olduqca normaldır. Çünki sən insanlardan fərqlənirsən. Mənim də orta məktəb, universitet vaxtı fərqli olmağımı daim kompleks etmişəm. Sosial mühitlərdə ola bilmirdim, dost çevrəsi qazana bilmirdim. İnsanlarla ünsiyyət qurmaqda çətinlik çəkirdim. Amma bir müddətdən sonra anladım ki, özümü qəbul etməliyəm və cəmiyyətdən qopmaq alınmır. Özümü qəbul edib sevməyə başladıqda, fərd olduğumu qəbul etdikdə komplekslərim də qırılmağa başladı.

**- İnsanların diqqətinin səndə olmasından narahat olursan?**

- Bu hətta sevindirici haldır. Səninlə maraqlanır, yaxınlaşıb nələrsə soruşurlar. Diqqətlər səndə olur və sən zamanla bundan həzz almağa başlayırsan.

**- Burdan albinos olmayan insanlara nə demək istərdin?**

- İnsanlara sadəcə onu tövsiyə edə bilərəm ki, albinoslara qarşı acı rəftar etməsinlər. İctimai yerlərdə gözlərini zilləyib onlara baxmasınlar. Məktəblərdə və bağçalarda həmyaşıdları onları ələ salıb gülməsinlər. Bu, onlara qarşı haqsızlıqdır. Albinoslara qarşı sadəcə diqqətli olsunlar. Autizmli, daun sindromlu insanları necə normal qəbul edirlərsə, albinosları da o cür normal qəbul etsinlər. Bu, hər kəsin borcu, vəzifəsidir.

**- Bu sual bəlkə də bir az klişe səslənəcək, amma yenə də bilmək istəyirəm: dünyaya yenidən gəlmək şansın olsa yenə də albinos olmaq istərdinmi?**

- *(Qəribə məmnunluq hissi ilə gülümsəyir və əlavə edir...)* Əlbəttə ki, hə.

**Günəş Mərd**

# Post-müharibə dönəmində informasiya təhlükəsizliyi çox ciddi məsələdir

## Kiberhücumların qarşısını almaq üçün onlayn xidmətlərin keyfiyyətli platformalar üzərindən qurulması mütləqdir



**Azərbaycanın bir sıra dövlət qurumu və banklara qarşı genişmiqyaslı kiberhücumlar olub. Bu hücumların ildən-ilə artması isə Azərbaycanda dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini aktual edir.**

Qeyd edək ki, Azərbaycanın elektron informasiya ehtiyatlarına qarşı genişmiqyaslı kiberhücumların gözlənildiyi barədə ötən həftə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi tərəfindən (KİMM) xəbərdarlıq yaymışdı. Bu açıqlamaya rəğmən kibercinayətkarların asanlıqla Azərbaycanın informasiya məkanına daxil olması və kiberhücum planlarını gerçəkləşdirməsi onu göstərir ki, müvafiq qurumlar profilaktik tədbirlər görmək imkanında deyil.

**İnternet-media eksperti Səbuhi Abbasov ”Şərq”ə açıqlamasında deyib ki, kibertəhlükəsizlik çox geniş, qlobal və demək olar ki, bütün dünyanı narahat edən problemlərdən biridir:** ”Bu hal ilk deyil. Zaman-zaman Azərbaycanda müxtəlif dövlət qurumlarına, özəl kommersiya təşkilatlarına və informasiya resurslarına yönəlik böyük kiberhücumlar olub. Bu tendensiyanın ildən- ilə artması isə onu göstərir ki, bizim dövlət qurumlarında kibertəhlükəsizlik dayanıqlı deyil.

Kiberhücumdan qorunmaq üçün profilaktik tədbirlər görülməli və texniki təhlükəsizlik məsələlərinə xüsusi önəm verməlidirlər. Əgər dövlət və ya özəl qurumlar istifadəçilərə səmərəli xidmət göstərmək istəyirlərsə istifadə etdikləri saytın təhlükəsizliyi və xidmətlərin proqramlaşdırılmasında istifadə olunan kodların etibarlılığından əmin olmalıdırlar. Bəzi şirkətlər hazır, şablonlardan istifadə edir və onlar arasında da açıq kodlar çox olur. Bu cür qurumlar isə kibercinayətkarlar tərəfindən asanlıqla hədəf seçilir. Bu sahədə çalışan əməkdaşlar informasiya təhlükəsizliyinin əsas prinsiplərini başa düşməli, etibarlı şifrələr seçməlidir.



Kiberhücumların qarşısını almaq üçün onlayn xidmətlərin keyfiyyətli platformalar üzərindən qurulması mütləqdir. Dünya təcrübəsində kiberhücumlardan müdafiə mexanizmləri var. Onların içərisindən ən uğurlularını seçib növbəti genişmiqyaslı kiberhücumların qarşısını almaq olar.

“Azərbaycanda DATA mərkəzlər qurulmalı, server mərkəzləri güclü müdafiə sistemi ilə təmin edilməlidir. Azərbaycanın dövlət və özəl qurumları yerli DATA mərkəzlərinə inteqrə edilməlidir”

Azərbaycanda kiberhücumlarla bağlı server xidmətləri çox deyil. Bir çox hallarda dövlət, xüsusən də özəl qurumlar serverləri xarici ölkələrdə yerləşən şirkətlədən alırlar. Bu da server səbəbindən yaranan problemin operativ həllini çətinləşdirir. Azərbaycanda DATA mərkəzlər qurulmalı, server mərkəzləri güclü müdafiə sistemi ilə təmin edilməlidir. Azərbaycanın dövlət və özəl qurumları yerli DATA mərkəzlərinə inteqrə edilməlidir”.

**Ekspertin sözlərinə görə, ölkəmizdə kiberhücum hallarının artmasında Rabitə Nazirliyinin fəaliyyətsizliyi də mühüm əhəmiyyət kəsb edir:** ”Təəssüflər olsun ki, kiberhücumların qarşısının alınmasında müvafiq qurum fundamental tədbirləri həyata keçirmir. Maarifləndirmə və qurumlara təklif olunan xidmətlər sahəsində vəziyyət heç də ürəkaçan deyil. Bu da öz növbəsində ölkənin internet və informasiya təhlükəsizliyini ciddi təhdid altına salır. Postmüharibə dönəmində yaşayan Azərbaycan üçün isə informasiya təhlükəsizliyi çox ciddi məsələdir. Müharibə dönəmində bu cür hücumların olması fonunda müharibədən sonra da dövlət qurumlarına kiberhücumların olacağını təxmin etmək o qədər də xüsusi istedad tələb etmirdi. İkinci Qarabağ savaşı, son dövrlərdə baş verən müharibələr göstərir ki, hər bir ölkənin kiber mühiti, informasiya təhlükəsizliyi milli təhlükəsizlik üçün mühüm faktora çevrilib.

Ona görə də aidiyyəti qurumlar bu sahəyə çox ciddi önəm verməli və müdafiə tədbirlərinin gücləndirilməsi məqsədi ilə ciddi islahatlar aparmalıdır.

Kiberhücumlar qarşısında səmərəli müdafiəni təmin etmək üçün bu sahədə çalışan əməkdaşlar, iş prosesləri və texnologiyalar prosesə cəlb olunmalı və dünya təcrübəsini tətbiq etməlidir”.

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;

**Vətəndaş cəmiyyəti dedikdə cəmiyyətin xüsusi tipi, özünəməxsus sosial-iqtisadi, siyasi, hüquqi təbiəti, inkişaf və yetkinlik səviyyəsi olan cəmiyyət nəzərdə tutulur. Vətəndaş cəmiyyəti dövlət və hüququn tarixi inkişafında müəyyən bir mərhələni təşkil edir. Qeyri-dövlət münasibətlərinin məcmusu olan bu cəmiyyətdə azad vətəndaşların könüllü birləşmiş strukturları mövcuddur və cəmiyyətə dövlətin müdaxiləsi qeyri-mümkündür.**

Vətəndaş cəmiyyəti insanların sosial, iqtisadi, dini, əxlaqi, mədəni maraqlarının formalaşdığı, reallaşdığı və müdafiə edildiyi sosial əlaqələr sistemidir. Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında vətəndaş cəmiyyəti institutlarının xüsusi çəkisi var. Azərbaycanda müəyyən inkişaf yolu keçən vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti bir çox sahədə problemlərin həllinə yardımçı olur. Bu gün ölkədə vətəndaş cəmiyyəti institutlarının fəallığı, vətəndaş cəmiyyəti institutlarının əməkdaşlıq istiqamətləri, ictimai nəzarətin təşkilində QHT-lərin rolu artmaqdadır. Qeyd edək ki, vətəndaş cəmiyyəti sivilizasiyanın inkşafının yeni mərhələsidir. Bu mərhələnin formalaşması və inkişafı üçün ilk növbədə fərdlərin birliyi olmalıdır. Fərdlərin birliklərinin ən rasional forması cəmiyyətin rifahı naminə çalışmaq məqsədini ortaya qoyan ayrı-ayrı şəxslərin birliyi olan QHT-lərdir. İnsanların sərbəst birləşməsi nəticəsində müxtəlif vətəndaş cəmiyyəti institutları yaranır. Vətəndaş cəmiyyəti institutları isə sosial cəmiyyətin inkişafında daha yüksək pillədir. Və bu institutlar cəmiyyət üzvlərinin bir-biri ilə əlaqə yaratmaq imkanlarını genişləndirir, sosial gərginliyin zəifləməsinə xidmət edir. Azərbaycanda da qeyri-hökumət təşkilatlarının yaranması və ictimai sektorun möhkəmlənməsi bilavasitə müstəqil Azərbaycan dövlətçiliyinin inkişafını şərtləndirən amillərdəndir. Son illər bütün demokratik və inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyətinin aparıcı qüvvəsi olaraq, demokratikləşmə, vətəndaş hüquqlarının müdafiəsi, hüquqi dövlət quruculuğu, sosial problemlərin həlli, maarifləndirmə, dünyaya inteqrasiya, Azərbaycan həqiqətlərinin dünyaya obyektiv çatdırılması və digər istiqamətlərdə fəaliyyətləri ilə böyük etimad və rəğbət qazanıblar. Vətəndaş cəmiyyəti institutları dövlət, bazar və ailə ilə yanaşı, ortaq fəaliyyət sferalarında da mövcuddur. Vətəndaş cəmiyyəti təşkilatları fərqli funksiyalarla cəmiyyətin inkişafına öz əvəzsiz töhfələrini verir. Bu təşkilatların fəaliyyəti ictimai siyasətlərin yaxşılaşdırılması və ehtiyaclara uyğunlaşdırılması, idarəetmədə və qərar vermədə əks mərkəzləşmə, yoxsulluğun azaldılması, ictimai iştirakçılığın təmin olunması, insan hüquqlarının qorunması, azad və ədalətli seçkilər, sağlamlıq, təhlükəsiz qida və ətraf mühitin formalaşmasına yönəlib. Son dönəmlər Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının sərbəst və fəal fəaliyyəti üçün hər cür şərait yaradılıb. Müasir dövrdə qeyri-hökumət təşkilatları artıq vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib institutlarından birinə çevrilib. Belə şəraitdə dövlət orqanları ilə qeyri-hökumət sektorunun sivil tərəfdaşlıq prinsipləri əsasında sıx əməkdaşlığı vətəndaş cəmiyyətinin inkişafı, demokratiyanın dərinləşməsi, qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və milli maraqların qorunması üçün böyük əhəmiyyət kəsb edir. QHT-lərin inkişafına yönəlmiş islahat və dəyişikliklər Azərbaycanda üçüncü sektorun inkişafında yeni bir mərhələ oldu. Hazırda ölkə QHT-ləri cəmiyyətlə dövlət orqanları arasında etimadlı münasibətlərin yaradılmasında körpü rolunu oynayan əsas institut və təsisatlara çevriliblər. Bu gün QHT fəaliyyətinin şəffaflığı, hesabatlılıq amilləri, onların həyata keçirdiyi layihələr haqqında cəmiyyət ətraflı məlumatlandırılır. Vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti, uğurları ictimai və media müzakirələrinin predmetinə çevrilib. QHT-lərin fəaliyyətində şəffaflığın artırılması ilə bağlı məsələlər dövlət orqanları tərəfindən də vaxtaşırı qaldırılır və vurğulanır. Bu da üçüncü sektorun daha da inkişaf etməsinə yönəlib. Bunun nəticəsidir ki, günü-gündən ardıcıl, sistemli səylərdən sonra dövlət orqanları ilə QHT-lər arasında tərəfdaşlıq münasibətləri və əməkdaşlığın inkişaf etdirilməsi sahəsində müsbət nəticələr artmaqda davam edir. Heç şübhəsiz, mühüm məqamlardan biri də Azərbaycan vətəndaş cəmiyyəti institutlarının beynəlxalq vətəndaş cəmiyyətləri ilə əməkdaşlığıdır. Bu, çox vacibdir. Bu həm beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinə, həm də Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması baxımından mühümdür. Sevindirici haldır ki, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyi də Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasına (ECOSOC) xüsusi məşvərətçi statuslu üzv qəbul olunub. QHT nümayəndələrinin sözlərinə görə, bu, Azəbaycan vətəndaş cəmiyyəti qurumlarının beynəlxalq təşkilatlara inteqrasiya etməsi sahəsində uğurlu bir nümunədir.



# QHT-lərə etimad və rəğbət artır

## Azərbaycanda üçüncü sektorun inkişafında yeni mərhələ başlayıb

**"İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Huseynzadə bildirib ki, 2020-ci ildə BMT-nin əsas qurumlarından olan ECOSOC-a üzv olmaq üçün müraciət edilib. Davamlı olaraq bu istiqamətdə iş aparılıb:** "Təşkilatın fəaliyyəti haqqında geniş məlumatlar təqdim etmişdik. Eyni zamanda təşkilata ECOSOC-un QHT idarəsindən də bəzi suallar və sorğular daxil olmuşdu. Üzvlüklə bağlı lazımi məlumatları, fəaliyyətimizlə bağlı informasiyaları və s. sorğuları dolğun şəkildə cavablandırdıq. Yaxın müddət üçün təşkilatımızın fəaliyyət strategiyasını təqdim etdik. ECOSOC-un məşvərətçi statusu dörd ildən bir seçilən, BMT-nin Təhlükəsizlik Şurasının üç daimi üzvü - ABŞ, Çin, Rusiya da daxil olmaqla 19 dövlətin nümayəndələrindən ibarət QHT komitəsinin zəmanət və tövsiyəsi əsasında verilir. Pandemiya ilə bağlı BMT və onun qurumlarının iclaslarının keçirilməsində müəyyən yubanmalar oldu. Nəhayət, ECOSOC-un QHT-lər üzrə Komitəsi 17 - 26 may 2022-ci il tarixli sessiyasında "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyini məşvərətçi statuslu üzvlüyə qəbul olunmasını BMT-nin İqtisadi və Sosial Şurasına tövsiyə etdi. Həmin sessiyada Ermənistan və Gürcüstandan da olan bir neçə QHT-nin müraciəti olsa da, həmin QHT-lər üzvlüyə tövsiyə edilmədi".

> Müasir dövrdə qeyri-hökumət təşkilatları artıq vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib institutlarından birinə çevrilib

Təşkilat sədri qeyd edib ki, Məşvərətçi statusun imtiyazları və üstünlükləri, eləcə də məsuliyyət və öhdəlikləri var: "Məşvərətçi statuslu üzv olaraq QHT BMT-nin beynəlxalq konfrans və tədbirlərində iştirak edə bilər. Bu tədbirlərdə yazılı və şifahi bəyanatlar verə bilər. Üzv QHT həmin tədbirlər zamanı paralel tədbirlər təşkil edə bilər. BMT-nin binalarına daxil ola, şəbəkə qura, lobbiçilik fəaliyyətini həyata keçirə bilər. Üzv QHT eyni zamanda BMT-nin qurumu yanında dövri hesabatlar və digər öhdəliklər də daşıyır".

*Qeyd edək ki, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyi 2016-cı ildə dövlət qeydiyyatına alınıb. Təşkilatın əsas missiyası informasiya təşəbbüslərinə dəstək göstərməklə ictimai, sosial və humanitar sahədə davamlı inkişafın təmin edilməsinə yardım etməkdir. Təşkilatın sədri Cəsarət Hüseynzadə vətəndaş cəmiyyətinin inkişafı və ictimai iştirakçılıqla bağlı bir neçə uğurlu layihələrin müəllifidir. Həm də "QHT.az" saytının təsisçisi və baş redaktorudur.*

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Mən də İrəvan qaçqınıyam, torpağıma qayıtmaq istəyirəm"

## Dilqəm Əhməd: "Müharibə tamamilə bitdikdən sonra qaçqınların rahat şəkildə dədə-baba torpaqlarında yaşamaları təmin edilməlidir"



**Qərbi azərbaycanlılara qaçqın statusunun verilməsi təklif olunub. Bu təkliflə "Qərbi Azərbaycan İcması"nın sədri, millət vəkili Əziz Ələkbərli çıxış edib. Deputat bildirib ki, Qərbi Azərbaycan qaçqınlarının statusu ilə bağlı qanun layihəsinə yenidən baxılmalıdır:**

"Bu gün bu insanlar heç bir hüquq və imtiyazlardan yararlana bilmirlər. Tarixi torpaqları uğrunda mübarizə aparmaq istəyənlər əvvəlcə özlərini qaçqın statusunda hiss etməlidirlər".

Məlumat üçün bildirək ki, bir neçə gün öncə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin ümumi yığıncağı keçirilib və Birlik "Qərbi Azərbaycan İcması" adlı qeyri-kommersiya təşkilatına çevrilib.

**İrəvan şəhərində anadan olmuş tanınmış araşdırmaçı-jurnalist Dilqəm Əhməd "Şərq"ə deyib ki, Əziz Ələkbərli deputat olmazdan öncə uzun illər Qərbi Azərbaycandan olan qaçqınların hüquqlarının qorunması ilə məşğuldur. Həm də bir alim kimi xeyli əsərin müəllifidir:** "Yeni bu sahəyə yad biri deyil, əksinə, birbaşa ilgili işin içərisindədir. Ona görə də onun atdığı təşəbbüsləri dəstəkləyirəm və doğru hesab edirəm. Mən özüm də İrəvan qaçqınıyam. Uzun illər əvvəl magistraturada oxuyarkən təhsil haqqından azad olunmuşdum. Başqa hər hansı bir güzəşt xatırlamıram. Halbuki, yeni güzəştlər olmalıdır. Məsələn, mənzil hüququ ilə bağlı hansısa güzəştlər edilsə, yaxşı olardı. Yaxud müharibə tamamilə bitdikdən sonra qaçqınların rahat şəkildə dədə-baba torpaqlarında yaşamaları təmin edilməlidir. Azərbaycan dövləti Ermənistan qarşısında bu məsələni qaldırmalıdır. Cənab Prezident dəfələrlə "biz tarixi torpaqlarımıza qayıdacağıq" deyib. Dövlət başçısının bu vədinə inanıram. Çünki Qarabağla bağlı dediyi hər şeyi yerinə yetirdi".

*D.Əhməd vurğulayıb ki, işğalda olan 20 faiz ərazimizin 16 faizi qaytarılıb:* "Geri qalan qismi də qısa zamanda tamamilə nəzarətimizə keçəcək. Bu baxımdan ümid edirəm ki, İrəvana da, Zəngəzura da qayıdacağıq. Şəxsən mən doğulduğum torpağı görmək istəyirəm. Bu, mənim ən təbii haqqımdır. Əlbəttə, tarix elə şanslar yarada bilər ki, vaxtilə Çar Rusiyası tərəfindən işğal edilmiş İrəvan xanlığı yenə də türklərin olar. İndiki halda isə biz oraya sivil yolla qayıtmalıyıq".

**İsmayıl**



# Bir an belə gözləmək olmaz

## Narkoman ata-anaların övladları dərhal ailədən alınıb dövlət nəzarətinə verilməlidir

**Bakıda valideyn uşağına işgəncə verib. Nərimanov rayonunda yaşayan ailədə baş verən hadisəyə polis idarəsinin əməkdaşları müdaxilə edib. Nəticədə körpə ailədən alınıb.**

Məsələ ilə bağlı Lent.az-a danışan "Azərbaycan Uşaqlar Birliyi"nin sədri Kəmalə Ağazadə körpənin hər iki valideyninin narkotik aludəçisi olduğunu deyib: "Uşağı gecə saatlarında Nərimanov rayon polis şöbəsinin əməkdaşları sığınacağa gətirib. Körpənin təxminən 2 yaşı olar. Bizdə olan məlumata görə, hər iki valideyn narkotik istifadəçisidir. Bununla bağlı Nərimanov Rayon İcra Hakimiyyətinə müraciət edəcəyik ki, məsələni nəzarətə götürsün. Sosial Xidmətlər Agentliyi tərəfindən ailə qiymətləndirilsin. Uşağın əlində yaralar var. Ehtimal edirik ki, baxımsızlıq səbəbindən yaralar yaranıb. Bilmirik, bəlkə də, uşağa nə isə ediblər. Çünki ilk dəfə deyil. Körpənin tibbi müayinədən keçirəcəyik. Onda hər şey tam dəqiq bilinəcək".

**Sosioloq Qərib Babayev hesab edir ki, narkotikdən əziyyət çəkənlər arasında valideynlərin də olması cəmiyyət üçün daha böyük faciələrə yol açır. Son günlərdə mediada narkoman valideyn tərəfindən atılan körpələrlə bağlı bir neçə məlumat yayımlanıb:** "Fikrimcə, narkoman ata-anaların övladları ailədən alınıb dövlət nəzarətinə verilməlidir, bu birmənalıdır, gözləmək olmaz. Atanın, ya da ananın nə zamansa içdiyi maddənin təsiri altında gözü dönüb o uşağı öldürməyəcəyi, səfalətlərə salmayacağı nə məlum. Onları dilləndirməyəcəyi, narkotika üçün pul tapıb gətirsin deyə oğurluğa məcbur etməyəcəyi zəmanətlidirmi? Və nəhayət, o uşaqların da böyüklərdən görüb-götürdüyünü davam etdirməyəcəyini bilmirikmi? Övlada həsrət o qədər ailələr varkən bir körpənin, bir insanın belə mühitdə çürüyüb getməsinə göz yummaq olmaz".

**Sosioloqun sözlərinə görə, ölkədə narkotik maddələrin istifadəsinin qarşısını almaq üçün kifayət qədər qadağalar olsa da, onların çoxu işləmir:** "Narkomaniya pislənilsə də, biz belə şəxslərin sayının artmasının şahidiyik. Demək ki, maarifləndirmə proqramı düzgün deyil. Çünki hansısa əhəmiyyətli bir işin icrası ilə mütəxəssislər deyil, bu işdən birbaşa olaraq başı çıxmayan şəxslər məşğul olurlar və bu, bir tendensiyaya çevrilib. Ümumiyyətlə, maarifləndirmə o demək deyil ki, televiziyaya çıxıb deməlisən ki, narkotik pisdir, onu qəbul etməyin. Bunun üçün ayrıca psixoloqa, mütəxəssisə, həkimə, ictimai xadimə də ehtiyac var. Maarifləndirmə işlərinə başlamazdan öncə problemin nədə olduğunu öyrənmək lazımdır. Ümumilikdə problemin kökünü tapmaq lazımdır. Bundan başqa, yeniyetmələrin bu cür bəlalardan qorunması üçün tövsiyələrə əməlin uyğunluq təşkil etməsi də önəmlidir".

**Şəymən**

# Məmur sadə olmağı bacarmalıdır

## Yol polisi hərəkət qaydasını pozan generalı da, polkovniki də saxlaya bilər




**Yol polisinin Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehtiyevi saxladığı anın görüntüləri yayılıb. Hadisə vaxtı Səfər Mehtiyev onun idarə etdiyi "Mercedes Galendevagen" markalı, 90 AA 978 dövlət qeydiyyat nişanlı avtomobildən düşərək yol polisi əməkdaşlarına qəzəblənib.**

Özünü general-polkovnik Mehtiyev kimi təqdim edən Səfər Mehtiyev onu saxlayan polisə "Nə həyasız adamsan? Sirena yandırdığımı görmürsən" deyib. Yol polisi isə cavabında ona "Cənab general, nömrədə yazılmır axı sürən kimdir?! Bizə deyiblər ki, siqnal olmaz"-, deyə bildirir. Daha sonra Gömrük Komitəsinin sabiq rəhbəri avtomobilinə əyləşərək ordan uzaqlaşıb. Xatırladaq ki, görüntülər Səfər Mehtiyev DGK sədri olarkən çəkilib.

**Məsələyə münasibət bildirən Azərbaycan Milli QHT Forumunun sədri, hüquq müdafiəçisi Rauf Zeyni bu haqda "Şərq"ə danışarkən bildirib ki, bu hadisələr illərdir, bizim düşüncəmizdə kök salmış fikirlərlə bağlıdır:** "Biz necə düşünürüksə, o cür də məmur oluruq. Heç kimə sirr deyil ki, bütün məmurlar özlərini yüksək imtiyazlı hesab edirlər. Fikirləşirlər ki, onları polis saxlaya bilməz. Saxlayırsa, demək onu tanımayıb. Burda bir gerçəklik var. Əgər qanunların aliliyi hamıya şamil edilirsə, polis yol hərəkəti qaydasını pozan generalın da, polkovnikin də, istənilən məmurun da avtomomobilini saxlaya bilər. Amma zamanla bizim düşüncəmizdə elə bir fikir formalaşıb ki, məmurlara söz demək olmaz".

R.Zeyni diqqətə çatdırıb ki, dövlət və qanun sevgisi övlad sevgisindən yüksəkdə olmalıdır: "Nə qədər ki, bizdə şəxsi ambisiya, şəxsi maraq milli maraqlardan, dövlətçilik marağından üstün tutulacaq, o zaman qədər də cəmiyyətdə belə hallar olacaq. Biz bunları düzəltməkdən ötrü əvvəlcə cəmiyyətdəki düşüncəni dəyişməliyik. Məmur da, vəzifəli şəxs də sadə olmağı bacarmalıdır".

**R.Zeyni vurğulayıb ki, başqa ölkələrdə məmurlar olduqca sadədir:** "Bizdə isə bəzi məmurlar özlərini elə aparırlar ki, adam onlara yaxınlaşmağa qorxur. Axı niyə belə olmalıdır? Əgər ölkənin prezidenti özü gəncindən yaşlısına qədər bütün kateqoriyalardan olan insanlarla ünsiyyətdə olursa, məmur niyə özünü "göylə aparmalıdır?". Artıq biryolluq vəzifə şöhrətini ağlımızdan çıxarmalıyıq".

**Günəş Mərd**

# Geri dön, mübarizəni davam etdir, Rəvanə müəllim!

## “Xaçmaz rayonundan olan müəllim də haqlı olaraq etdiyi etirazda tək qalıb. Onun dediyi bir çox fakt rəsmi şəkildə təsdiqini tapıb”

**Xaçmaz rayonu, Çaykənarı kəndində müəllim işləyən Rəvanə Asiman çalışdığı məktəbdə qanunsuz halların olması, şagirdlərə dərman paylanılması, işlədiyi dövrdə haqsızlıqlarla üzləşməsini sosial şəbəkə hesabında paylaşıb. O, paylaşımında bu səbəblərdən ərizə yazaraq 2 il çalışdığı məktəbdən ayrıldığını bildirib. R.Asiman qeyd edib ki, şagirdlərə narkotik tərkibli dərmanlar paylanıb və bu fakt məktəb rəhbərliyini heç narahat etməyib.**



Gənc müəllim bu məsələlərlə əlaqədar aidiyyəti dövlət orqanlarına, o cümlədən Təhsil Şöbəsinə şikayət edib, amma nəticəsiz qalıb: ”On dəfəyə yaxın Təhsil Nazirliyi və Təhsil Şöbəsinə yazılı və şifahi şikayətimi bildirdim. Demək olar ki, hamısı nəticəsiz qalırdı. Təhsil Nazirliyinə göndərdiyim ərizə çap şəklində çıxarılıb məktəbə gətirildi və son nəticədə mən xəbərçi oldum, yoxlama belə nəticəyə gəldi ki, ”məktəb ailədir, ailənin sirri kənara çıxmaz”.

**Təhsil eksperti Elşən Ramizoğlu gənc müəllimənin etiraz dolu açıqlamasını ”Şərq”ə şərh edib:**

”Həmin məktəbin direktoru ora müddətsiz müqavilə ilə deyil, müddətli müqavilə ilə təyin olunub. Bu, bir çox müəllimlərimizi narahat edən məsələlərdən biridir. Artıq bilirsiniz ki, müəllimlər şəffaf yolla, imtahan vasitəsi ilə işə qəbul olunur. Təbii ki, bu zaman da məktəblərə gedərkən rüşvət, dərs saatlarının kəsilməsi kimi bir çox xoşagəlməz hallarla qarşılaşırlar. Bunu görən müəllimlər etiraz edirlər. Ancaq bir müəllim başqa bir mühitə düşüb, orda etiraz etdikdə həmin yerdə bu heç də xoş qarşılanmır. Belə olduqda etiraz edən müəllim tək qalır, kollektivdən çox az adam ona dəstək verir. O, haqlı olsa da, haqsız duruma düşür. Xaçmaz rayonundan olan müəllim də haqlı olaraq etdiyi etirazda tək qalıb. Onun dediyi bir çox fakt rəsmi şəkildə təsdiqini tapıb. Əgər təsdiqini tapan hallar olubsa, deməli, burda qeyri-şəffaf bir mühit var. Həmin müəllim də haqlı olaraq etiraz edib”.

Ekspert diqqətə çatdırıb ki, Quba-Xaçmaz Regional Təhsil İdarəsi tərəfindən məsələ araşdırılıb. Sözügedən məktəbin direktoru və müavini işdən çıxarılıb: ”Quba-Xaçmaz Regional Təhsil İdarəsi müsbət işlər görən regional təhsil idarələrindən biridir. Həmin müəllim elə regional təhsil idarələri ilə rastlaşardı ki, bircə fakt belə təsdiqini tapmazdı. Burda isə belə olmayıb”.

Müəllimin ərizəsini yazıb işdən çıxması məsələsinə gəlincə isə təhsil eksperti elə hesab edir ki, Rəvanə müəllim işinə qayıtsa, daha yaxşı olar: ”O, ən azından həmin məktəbdə baş verən qeyri-qanuni hallara qarşı başladığı mübarizəsini yenidən davam etdirər, bununla da cəmiyyətə daha çox xeyir vermiş olar”.

**Günəş Mərd**

# AQTA hərəkətə keçdi!

## Yoluxucu heyvan xəstəliklərinin qarşısı alınacaq

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) başqa ölkələrdən Azərbaycan ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (WOAH) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir. Bu barədə AQTA məlumat yayıb. Bildirilib ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatına əsasən, Rusiya Federasiyasının Maqadan vilayətində və Şotlandiyanın Orkney adalarında yüksək patogen quş qripi, Rusiya Federasiyasının Tıva Respublikasında isə nodulyar dermatit xəstəliyi qeydə alınıb.**

Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə WOAH-nin ”Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, Rusiya Federasiyasının Maqadan vilayətindən və Şotlandiyanın Orkney adalarından diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının, quş yemləri və quş üçün yem əlavələrinin, quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların, o cümlədən Rusiya Federasiyasının Tıva Respublikasından bütün növ diri iribuynuzlu heyvanların və onlara aid genetik materialların idxalına müvəqqəti məhdudiyyət tətbiq olunub.

**Tətbiq edilən qadağaya münasibət bildirən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov ”Şərq”ə açıqlamasında bildirib ki, bu addım biznesin inkişafına töhfə verə bilər:** ”Dünyada bütün dövlətlər biznesin inkişafını dəstəkləyirlər. Lakin bütün dövlətlərdə bilirlər ki, bu sahədə biznesi inkişaf etdirmək üçün yoluxucu xəstəliklərdən qorunmaq lazımdır. Yəni elə iş aparmaq lazımdır ki, heyvan və quş qırğınları olmasın. Əslində bu özü də biznesin inkişafına dəstək verən amillərdəndir.



Bu kimi hallarla məşğul olan beynəlxalq təşkilatlar var. Beynəlxalq Epizodik Büro da bu təşkilatlardandır və Azərbaycan bura üzvdür. Belə təşkilatlar sayəsində bu sahədə daim informasiya mübadiləsi olur. AQTA da bundan yararlanır”.

*E.Hüseynov düşünür ki, AQTA-nın atdığı addım adıçəkilən xəstəliklərin Azərbaycanda yayılmasının qarşısını alacaq:* ”Birmənalı şəkildə AQTA bu qadağaları tətbiq edirsə, öncədən biznes qurumlarına, idxalçı və ixracçılara mesaj göndərir ki, belə kontraktları dayandırsınlar. Bu çox vacib məsələdir. Hesab edirəm ki, ölkəmiz AQTA-nın müfəvvəqiyyətli addımları sayəsində bu xəstəliklərdən qoruna bilər.

Eyni zamanda, analoji olaraq Azərbaycanda baş verən müəyyən xəstəliklər barədə Beynəlxalq Epizodik Büro digər ölkələrə xəbər verir. Təşkilatın bu fəaliyyəti ölkələr üçün gözəl mübadilə mənbəyidir. AQTA-nın da bu fəaliyyəti təqdirəlayiqdir”.

**Çimnaz Şahlar**



# Xalq tələb edir

## Sürücülük vəsiqəsi ilə bağlı imtahanlar DİM tərəfindən həyata keçirilsin

**Sosial şəbəkələrdə aparılan müzakirələr zamanı sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların nəzəri hissəsinin Dövlət İmtahan Mərkəzinə verilməsi təklif olunub.**

Qeyd olunub ki, yol qaydalarından anlayışı olmayan sürücülərin rahatlıqla sürücülük vəsiqəsi alması qəza sayını artırır.

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov isə “Şərq”ə açıqlamasında deyib ki, sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların Dövlət İmtahan Mərkəzinə verilməsi effektiv təklif deyil:** ”Uzun illərdir Daxili İşlər Nazirliyinin Dövlət Yol Polis İdarəsində bu imtahanları keçirmək üçün baza formalaşıb, bütün resurslar var. Sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların təşkili üçün DİM-də lazımi resurslar varmı? Ümumiyyətlə, qurum özü bu yükün altına girməyə hazırdımı? Həm də ki, imtahanı DİM keçirsə belə DYP əməkdaşlarının imtahan prosesində iştirakı mütləqdir. İmtahanın qəbulu, vəsiqələrin verilməsi onların səlahiyyətindədir. Belə olan halda sürücülük vəsiqəsi almaq üçün keçirilən imtahanların nəzəri hissəsinin DİM-ə verilməsi o qədər də əhəmiyyətli bir məsələ deyil. Peşəkar sürücü hazırlayan obyektiv, şəffaf imtahan sistemi və sürücü təhsili olmalıdır. Bir imtahanda iki qurumun təşkilatçılıq etməsi əlavə prosesdir və imtahanların DİM tərəfindən keçirilməsi xüsusi bir dəyişikliyə səbəb olmayacaq. Əsas məsələ imtahanın necə götürülməsidir və bu proses DYP tərəfindən normal qaydada icra olunur”.

**Şəymən**

### Elanlar

Samullayev Rövşən Nurulla oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Əsədov Müşviq Bəhman oğluna məxsus Qarabağ Müharibəsi veteranı vəsiqəsi № 015428 itdiyi üçün etibarsız sayılır.

Fətiyev Ədayət Nazim oğluna məxsus AD № 0041455 hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Şibliyeva Sənəm Qəhraman qızına Dövlət Miqrasiya xidməti tərəfindən verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, Xiyabani küçəsi 1433, mənzil 474-də yaşayan Fərqanə Güloğlan qızı Əzizovaya məxsus 2006-cı ildə ”Simurq” MTK tərəfindən verilmiş qaraja dair müqavilə itdiyi üçün etibarsız sayılır.

### Bildiriş

Dövlət Gömrük Komitəsi ”Azerterminalkompleks” Birliyi İkan operator şöbəsinin inspektoru Musayev Zamin Zakir oğluna məxsus AA 0006877 seriyalı 6936 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.




# Azyaşlıları Aşura mərasiminə aparmayın!

## Elşad Miri: ”Ağlaşma və zəncirvurmanın islamla əlaqəsi yoxdur”

**Avqustun 8-də Azərbaycanda Aşura mərasimləri keçirilib. Mərasimlərə uşaqların aparılması, onların ağlaşma, zəncirvurma kimi səhnələrə şahidlik etməsi cəmiyyətdə birmənalı qarşılanmayıb, müzakirə mövzusuna çevrilib. İnsanların böyük bir qismi azyaşlıların belə mərasimlərdə iştirakını qınayıb.**

*İlahiyyatçı Elşad Miri ”Şərq”ə bildirib ki, azyaşlıların Aşura mərasimlərində iştirakı məsələsinə valideynlər özləri cavabdehdir:* ”Çünki uşaqlar onların himayəsindədirlər. Qanunvericilikdə belə yerlərə getmək üçün xüsusi bir yaş həddi müəyyənləşdirilməyib. Bunun qarşısını inzibati qaydada deyil, maarifləndirmə yolu ilə almaq daha məqsədəuyğundur”.

*İlahiyyatçının sözlərinə görə, bəzi psixoloqlar hətta qurbanlıq heyvanı belə uşaqların gözü qarşısında kəsməməyi tövsiyə edirlər: ”Bu məsələyə də* sırf psixoloji aspektdən yanaşmaq lazımdır. Digər tərəfdən isə ağlaşma, zəncirvurma ”Qurani-Kərim”də öz əksini tapmayan, islamla əlaqəsi olmayan məsələdir. İnsanlar bunu özləri uyğun bilib tətbiq edirlər. Həzrəti Məhəmməd peyğəmbərin özü sağlığında üç qızı, üç oğlu dünyadan köçdüyü halda nə belə bir mərasim təşkil edib, nə də belə bir ağlaşma qurub. Buna görə bu cür məsələlər o dövrdə heç vaxt gündəmə gəlməyib”.

**Günəş Mərd**

# 20 ildir, görürük, deyirik, heç bir faydası yoxdur



**Azərbaycanda azyaşlı uşaqlar spirtli içki qəbul edib. Bu barədə görüntüləri ”Azərbaycan Uşaqlar Birliyi”nin sədri Kəmalə Ağazadə ”Facebook” hesabında paylaşıb. Videodan da aydın olur ki, təxminən 4-7 yaşlı uşaqlar masa arxasında əyləşərək, spirtli içki içirlər. Videonu izləyən insanlar görüntüdəki uşaqların hərəkətlərini qınaq obyektinə çeviriblər.**

> Hökumət sağlam gələcəyimiz üçün azyaşlılara sahib çıxmalıdır. Lazımi mexanizmləri işə salmalıdır

Sosioloq Elçin Bayramlı ”Şərq”ə açıqlamasında bildirib ki, belə hallar tez-tez müşahidə olunur: ”Ölkəmizdə analoji məsələlərlə bağlı valideynlərin məsuliyyəti az qala sıfır səviyyədədir. Üstəlik, kənar şəxslərin də düşünülməmiş hərəkətləri azyaşlıları spirtli içkiyə meyilləndirir. Ona görə də cəzaların icrasına ehtiyac var. Maarifləndirmə kimi söhbətlərin heç bir xeyri yoxdur.

Tamamilə mənasızdır. 18 yaşına qədər uşaqlara siqaret və alkaqollu içkilərin satılmasına icazə verən, göz yuman mağazalara, iaşə obyektlərinə sərt cəzalar tətbiq edilməlidir. Həmçinin buna yol verən valideynlər də məsuliyyətə cəlb olunmalıdırlar.

Əks təqdirdə yeniyetmə və gənclərin tüfeyli həyata sürükləndiyinin şahidi olacağıq. Cəmiyyətin düşüncələri, fikirləri dəyişmədiyi üçün dövlət özü məcburi qanun, cəza ilə bu davranışları tənzimləməlidir, qaydasına qoymalıdır. 20 ildir, görürük, danışırıq, deyirik. Heç bir faydası yoxdur.

Hökumət sağlam gələcəyimiz üçün azyaşlılara sahib çıxmalıdır. Lazımi mexanizmləri işə salmalıdır. Hansı səviyyədə olması fərq etməz. Əsas məqsəd qarşısını almaqdır. Bir çox ölkələrin dünya təcrübəsində də belədir”.

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2250



## 25 könüllü axtarılır

### Yeni uçan avtomobil sınaqdan keçiriləcək...

**Fransız ixtiraçı Franki Zapata yeni uçan avtomobilini sınaqdan keçirmək üçün 25 könüllü axtarır.**

"Şərq" NTV-yə istinadən xəbər verir ki, 43 yaşlı Zapata havada olduğu kimi quruda da hərəkət edə bilən avtomobil üzərində işlədiyini açıqlayıb.

O bildirib ki, "JetRacer" adlanan bu avtomobil bir oturacaqlıdır. Zapata söyləyib ki, təkərləri olmayan "JetRacer" on mikro-turboreaktiv mühərrikdən istifadə edərək şaquli şəkildə qalxıb enə bilir və bu, 3 000 metr hündürlüyə qalxmağa imkan verir.

O, avtomobilin karbon lifi və titandan hazırlandığını və iki coystiklə idarə olunduğunu vurğulayıb.

Lakin ixtiraçı avtomobilin qiyməti və ictimaiyyətə təqdim olunacağı vaxt ilə bağlı heç bir təfərrüat açıqlamayıb.

F.Zapata yeni ixtirasının bir gün dağıntılar altından insanları xilas etmək üçün və ya təcili tibbi yardım həkimləri tərəfindən istifadə oluna biləcəyinə ümid edir. Fəqət bu ixtira ilkin olaraq akrobatika şouları və əyləncə üçün istifadə ediləcək.

Zapata könüllülüklə maraqlanan hər kəsin saytı vasitəsi ilə onunla əlaqə saxlamasını xahiş edib.

**Çimnaz Şahlar**

## Turistlərə ictimai yerlərdə foto və video çəkməyə icazə verilib

### Qanunun layihəsi Misir parlamentində qəbul edilib



**Misirin Baş naziri Mustafa Mədbuli əcnəbi turistlərə və bu ölkədə müvəqqəti məskunlaşmış şəxslərə tarixi məkanlar və ictimai yerlərdə şəxsi istifadə üçün foto və video çəkməyə icazə verən qanunu imzalayıb.**

Azərtac xəbər verir ki, bu qanunun layihəsi Misir parlamentində qəbul edilib və hökumət başçısının təsdiqindən sonra qüvvəyə minib. Beləliklə, bundan sonra Misir ehramlarını və ya Luksordakı Krallar vadisində tarixi abidələrini lentə alan əcnəbilər ödəniş etməyəcək və yazılı icazə almayacaqlar. Lakin bu qayda peşəkar çəkiliş aparan media nümayəndələrinə şamil olunmur. Onlar Misirin Dövlət İnformasiya Xidmətindən və Daxili İşlər Nazirliyindən yazılı məktub almalıdırlar.

Bundan başqa, turistlərə Misirdə dövlət binaları, xüsusən polis postları, məntəqələri, hərbi obyektlərin və iri körpülərin fotoşəkillərini çəkmək də qadağandır.



# Xəzinə ovu...

## Milyarderlər buzlaqların əriməsinə sərmayə qoyurlar

**Qrenlandiyanı əhatə edən buz təbəqəsinin sürətlə əriməsi dünyanın ən zəngin adlarını hərəkətə keçirib. Bill Geyts, Ceff Bezos və Michael Bloomberg də daxil olmaqla bir qrup multimilyarder artıq yaşıl enerji keçidini gücləndirə biləcək minerallar tapmaq üçün buzlaqların əridiyi geniş ərazilərə sərmayə qoyur.**

Multimilyarderlər Qrenlandiyanın Disko adası və Nuussuaq yarımadasının səthindəki buzlaqların sürətlə əridiyi təpə və vadilərə milyardlarla dollar xərcləyir.

Dünyanın ən zəngin adları bu buzlaqların əriyən bölgələrində milyonlarla elektrik avtomobili gücləndirmək üçün kifayət qədər minerallar tapmaq üçün Kaliforniyada yerləşən "Kobold Metals" və "Bluejay Mining" mədən şirkətlərini maliyyələşdirir.

Məşhur adların maliyyələşdirdiyi mədən şirkətləri artıq buzların əridiyi bölgədə elektromobillərdə istifadə olunan metalların axtarışına başlayıb.

Elektrik transformasiyası ilə parıldayan nikel, palladium, mis, kobalt və platin mədənlərini tapmaq üçün işə başlayan "Kobold Metals"in baş direktoru Kurt House, CNN-ə milyarder klubunun şirkətə maliyyə dəstəyi verdiyini bildirərək bölgədə xəzinə olduğunu təsdiqləyib. O, dünyada birinci və ya ikinci ən əhəmiyyətli nikel və kobalt yatağının burada yerləşdiyini ifadə edib.

30 geoloq, geofizik, aşpaz, pilot və mexanik "Kobold" və "Blujay" şirkəti ilə birgə basdırılmış xəzinəni axtardığı yerdə işləyir.

Komandalar yerin elektromaqnit sahəsini ölçmək və aşağıdakı qaya təbəqələrinin xəritəsini çəkmək üçün torpaq nümunələri götürür, uçan pilotsuz təyyarələr və ötürücüləri olan vertolyotlardan istifadə edirlər. Onlar gələn ilin yayında harada qazılacağını dəqiq müəyyən etmək üçün məlumatları təhlil edir, süni intellektdən yararlanırlar.

Bo Moller Stensgaard, "Bluejay Mining"in baş direktoru: "Qrenlandiyada iqlim dəyişikliklərinin nəticələri və təsirlərinin şahidi olmaq qorxuncdur. Lakin iqlim dəyişiklikləri ümumilikdə Qrenlandiyada kəşfiyyat və mədən işini asanlaşdırıb və daha əlçatan edib".

Stensgaard, iqlim dəyişikliyi dənizdə buzsuz vaxtları uzatdığından ekipajların ağır texnika və metalları qlobal bazara daha asan daşıya biləcəyini söyləyib.

Stensgaard qeyd edib ki, bu minerallar iqlim böhranının təqdim etdiyi çağırışlara cavab verəcək həll yolu təqdim edəcək.

ABŞ Arktika Tədqiqat Komissiyasının sədri Mayk Sfraqa: "Bu tendensiyalar gələcəkdə də davam etdikcə, daha çox ərazinin əlçatan olacağına şübhə yoxdur və bu torpaqların bir hissəsi mineral inkişaf potensialına malik ola bilər".

Alimlər Qrenlandiyadakı buzlaqların 20-30 il ərzində yox olacağını gözləyirlər. Buzlaqlar əridikcə yalnız mövsümi buz örtüyü qalacaq.

Qeyd olunur ki, Qrenlandiyadakı buz örtüyü dünyada ikinci ən böyük buz təbəqəsidir və artıq qlobal dəniz səviyyəsinin qalxmasına ən böyük töhfə verəcək.

**Turan Can**









## 1,5 milyondan çox bəyəni gəlib

### Ronaldo 4 aylıq qızının üzünü göstərib

**Dünya şöhrətli futbolçu Kriştiano Ronaldonun vətəndaş nikahında yaşadığı Corcina Rodrigez 4 aylıq qızlarının üzünü göstərib.**

Axşam.az xəbər verir ki, o, Bella Esmeraldanın şəklini izləyiciləriylə payşalaraq "Böyük və kiçik nemətim" sözlərini yazıb.

Körpənin fotosuna 1,5 milyondan çox bəyəni gəlib.

*Qeyd edək ki, aprelin 18-də Esmeraldanın əkiz qardaşı doğuş zamanı dünyasını dəyişib.*

## Almaniyada maraqlı hadisə

### Xoruzu banladığına görə qonşularını məhkəməyə verib



**Almaniyada yaşlı cütlük səhər saat 08:00-dan başlayaraq gündə 200 dəfə xoruz banladığına görə qonşularını məhkəməyə verib.**

76 yaşlı cütlük "Maqda" adlı xoruzun susmaq bilmədiyini, xoruzun evdən çıxarılmasını istədiklərini bildiriblər. Yaşlı cütlük məhkəməyə sübut təqdim etmək üçün xoruzun hər banlamasını da qeydə aldıqlarını bildirib.

"Biz bağçadan istifadə edə bilmirik və heç bir pəncərəni də aça bilmirik. Xoruz gün ərzində 100-200 dəfə xırıltı verir. Dözülməzdir". Lakin "Maqda"nın sahibi 50 yaşlı Maykl toyuq bəslədiyini əsas gətirərək xoruza ehtiyacı olduğunu iddia edərək, "Cücələrə xoruz lazımdır, əks halda bir-birini öldürərlər " deyib.

**Turan**

## Nihat Doğan 3 aylıq hamilə olan pərəstişkarı ilə evləndi



**Türkiyəli müğənni Nihat Doğan evlənib. Axşam.az xəbər verir ki, ifaçı iranlı pərəstişkarı Arzu adlı xanımla nikah masasına əyləşib. Mərasimdə cütülüyün ailə üzvləri və yaxınları iştirak edib.**

Bu barədə musiqi prodüseri Erol Köse məlumat yaysa da Nihat özü məsələ ilə bağlı hələlik açıqlama verməyib.

Arzu Doğanın 3 aylıq hamilə olduğu bildirilib.



## Xoşbəxt qadın, xoşbəxt evlilik deməkdir

### Alimlər maraqlı araşdırma aparıb



**Çox oturuşmuş bir söz var; Xoşbəxt qadın, xoşbəxt evlilik deməkdir. Bəs həqiqətən xoşbəxt bir xanım nikahınızın xoşbəxtliyini artıra bilərmi? Bəzi araşdırmalar göstərir ki, evliliyin davamlılığı həyat yoldaşların xoşbəxtliyi ilə düz mütənasibdir.**

Hər evlilikdə qadın və kişi fərqli rollara malikdir. Aldıqları bu rollar onların xoşbəxtliyinə nə dərəcədə təsir edir? Rutgers Universitetinin araşdırmasına görə, qadınların xoşbəxtliyi evliliyin davamlılığına çox təsir edir.

394 cütlük arasında aparılan araşdırmaya görə, evliliyin gedişatının və sülhün müəyyənləşməsində qadınların məmnuniyyəti böyük rol oynayır.

Qadınlar bədbəxt olarsa, evlilik ciddi bir dalana girə və hətta sona çata bilər. Ancaq evlilikdə kişi tərəfi bədbəxt olarsa, münasibətlər daha az əziyyət çəkir. Kişilərin münasibətlərində qadınlardan daha xoşbəxt olma meylinin buna təsir etdiyi iddia edilir.

Araşdırmalar göstərir ki, qadınların evlilikləri ilə bağlı hissləri kişilərin xoşbəxtliyinə birbaşa təsir edir.

Bəs niyə xoşbəxt qadınlar xoşbəxt evlilik demək istəyirlər? Araşdırmalar göstərir ki, xoşbəxt qadın kişini məmnun etməyə daha çox istəkli olacaq. Müəllif Deborah Carr deyir: "Əgər qadın evliliyində xoşbəxtdirsə, əri üçün dinc və müsbət bir mühit yaratmağa çalışacaq. Arvadını daha çox dinləyəcək, emosional aktiv olacaq və ona hər cəhətdən dəstək olacaq. Bu, evliliyin ümumi xoşbəxtliyə çatmasını təmin edəcək".

Bəzi kişilər üçün qadınların xoşbəxt olub-olmadığını anlamaq asan olmaya bilər. Müəllif Deborah Karrın fikrincə, qadın bədbəxt olarsa, bu barədə danışmaqdan qaçar. Kişilər o qədər sakit olacaqlar ki, qadınlar problem olub-olmadığını belə bilməyəcəklər.

Bu araşdırmanın nəticəsi ünsiyyətin nə qədər vacib olduğunu göstərir. Evliliyi qorumaq üçün sağlam ünsiyyətin zəruri olduğu şəksizdir.

Yalnız bir tərəfin hissləri bütün münasibətin taleyini müəyyən edəndə evlilikdə xoşbəxtlik olmaya bilər. Buna səbəb olmamaq üçün bütün kartları üzü yuxarı oynamaq lazımdır.

**Turan**

## Ciddi təhlükədədirlər

### Elektron siqaret çəkənləri müalicə etmək lazımdır



**Elektron siqaret - veypinqlər orqanizmə dağıdıcı təsir edir.**

Bakupost.az xəbər verir ki, Kopenhagen universitetinin alimləri veyplərin 90% orqanizmə zərərli təsirini sübut ediblər. Baxmayaraq ki, məhsul istehsalçıları, hətta bəzən həkimlər insanları tütündən çəkindirərək, sağlamlıqlarını qorumaq üçün elekrtron siqaretlərə təhrik edir.

Son elmi araşdırmalar göstərib ki, veypinq 50% ağciyər xəstəliklərini artırır.

Eləcə də damarlarda tromb yaradaraq, ürək-damar, cinsi problemlər, ereksiya zəifliyi yaradır.

Veypinqin 71% halda ürək tutması, insult, 59% halda stenokardiyaya səbəb olduğu sübut olunub.

Əgər insan müəyyən müddət elektron siqaret çəkibsə və ya hazırda da veypinq çəkirsə, onun ciddi müayinəyə və müalicəyə ehtiyacı var. Orqanizmin məhv olması baxımından bu adamların siqaret, tütün çəkənlərdən fərqi yoxdur.

## Lanye virusu nədir?

### Pandemiyaya səbəb olacaq yeni virus meyvə ilə yayılır



**Ötən həftədən Çində aşkarlanan və artıq 40 insanın yoluxduğu yeni xəstəlikləri alimləri qorxudur.**

Medicina.az xəbər verir ki, Çin alimləri insan və heyvanları yoluxdura bilən ölümcül təhlükəli henipavirusun əvvəllər məlum olmayan növünü aşkar ediblər. Yeni patogen Lanye virusu (LayV) adlandırılıb.

Görünən simptomlar öskürək, qızdırma, zəiflik, əzələ ağrısı, ürəkbulanma və başağrısıdır.

İndiyədək yoluxmuşlar arasında heç bir əlaqə aşkar edilməyib və onların yaxınlarında xəstəlik əlamətləri yoxdur. Bu, virusun insandan insana ötürülməsinin mümkün olmadığına ümid etməyə imkan verir.

Ümumiyyətlə, patogen henipavirusun Nipah növünə (NiV) bənzəyir, lakin Lanye vəziyyətində həkimlər hələ ki, ölüm və ya ağır gedişat müəyyən etməyiblər.

Qeyd edək ki, henipavirus yarasalar, siçanlar tərəfindən yayılır və yoluxmuş heyvanın tüpürcəyi ilə çirklənmiş meyvəni yeyən insanlara ötürülür. Ona qarşı nə dərman, nə də vaksin var və xəstəliyin ölüm nisbəti 40-75% arasında dəyişir (Koronavirusun göstəricilərindən yüksəkdir).